AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpnews.az
www.olimpiyadunyası.az

Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti

№ 2 (1402), 15 - 21 yanvar 2019-cu il

Qəzet 2001-ci ildən çıxır.

## Lozanna-2020-nin talismanı bəlli olub



Lozanna-2020-nin Təşkilat Komitəsi gələcək Oyunların talismanını təqdim edib. Bu, yerli rəssamlıq məktəbinin tələbələrinin yaratdığı Yodli obrazıdır. Yodli İsveçrə dağlarında yaşayan inək, keçi və senbernar cinsli itin əlamətlərini özündə birləşdirən hibrid varlıqdır.

Yeniyetmələrin III Qış Olimpiya Oyunları 2020-ci il İsveçrənin Lozanna şəhərində keçiriləcək. 15-18 yaşlı 1800 idmançı Lozannada səkkiz idman növü üzrə yarışlarda qüvvəsini sınayacaq. Yarışlar İsveçrənin müxtəlif guşələrində və qonşu Fransada keçiriləcək.

Yeri gəlmişkən qeyd edək ki, Yeniyetmələrin IV Qış Olimpiya Oyunları 2024-cü ildə təşkil ediləcək. Bolqarıstan, Rumıniya, İspaniya və Rusiya bu olimpiadaya ev sahibliyi etmək istəyirlər. Olimpiada-2024-ə ev sahibliyi uğrunda mübarizəyə isə 2021-ci ildə start veriləcək.




## Olimpizm

### BOK təqsirsizlik prezumpsiyasına riayət edəcək

"Inside the Games" portalı xəbər verir ki, Beynəlxalq Olimpiya Komitəsi (BOK) Yaponiya Olimpiya Komitəsinin rəhbəri, korrupsiyada ittiham edilən Sunekadzu Takedaya münasibətdə təqsirsizlik prezumpsiyasına riayət etmək niyyətindədir.

Beynəlxalq Olimpiya Komitəsinin etika komissiyası Takedanın barəsində korrupsiya haqqında iş üzrə təhqiqata başlayıb. BOK-un bəyanatında deyilir: "BOK cənab Takedaya münasibətdə təqsirsizlik prezumpsiyasına riayət edəcək. Bu hadisələr BOK genişmiqyaslı islahatlar aparana qədər baş verib. Həmin islahatlar sayəsində komitə özünün etnik kodeksini təsbit etməyə nail olub".



Fransalı müstəntiqlər Takedaya korrupsiya ilə bağlı ittiham təqdim ediblər. Bu ittihamlar dekabrın 10-da 2020-ci il Olimpiya Oyunlarının paytaxtının seçilməsi gedişində korrupsiya barədə iş üzrə Paris müstəntiqləri tərəfindən təqdim edilib. İstintaqın fikrincə, 2013-cü ildə keçirilmiş seçkilərdə Tokionun qələbəsi Yaponiya tərəfinin Afrika nümayəndələrinin səslərini qazanmasına imkan yaratmış gizli bank əməliyyatlarının nəticəsində mümkün olub. İstintaq versiyasına görə, rüşvət verilməsini sanksiyalaşdıran Takeda olub.

2020-ci il Yay Olimpiya Oyunları iyulun 24-dən avqustun 9-dək Yaponiyada keçiriləcək.

### II Avropa Oyunları dövründə idmançılar dərmanları pulsuz ala biləcəklər

Minskdə keçiriləcək II Avropa Oyunları dövründə Olimpiya Kəndində yaşayan idmançılar zəruri dərmanları pulsuz ala biləcəklər.

Belarusun səhiyyə nazirinin birinci müavini Dmitri Pineviç bu məlumatı "2019-cu il II Avropa Oyunlarının tibbi və antidopinq təminatı məsələləri" mövzusunda respublika maarifləndirici seminarında açıqlayıb.

D.Pineviç deyib: "İdman obyektlərində və atletlərin yaşadığı yerlərdə ilk dəfə olaraq ayrı-ayrı poliklinikalar işləyəcək. Məsələn, Olimpiya Kəndində idmançılar zəruri dərmanları pulsuz ala biləcəklər".

"2019-cu il II Avropa Oyunlarının müdiriyyəti" fondunun direktoru Georgi Katulin qeyd edib ki, II Avropa Oyunlarına hazırlıq dövründə əsas funksional istiqamətlərdən biri tibbi və antidopinq təminatıdır. O deyib: "Dünya Antidopinq Agentliyinin müstəqil ekspertləri Olimpiya Kəndində yaşamaq imkanı almaq üçün müraciət ediblər. Bütün bunlar hadisələrin mərkəzində olmaq və antidopinq nəzarətini həyata keçirmək üçün edilir".

Orta hesabla hər 4 idmançıdan biri onun orqanizmində dopinq olub-olmamasını müəyyən etmək üçün yoxlamadan keçəcəkdir. Sınaq nümunələrinin sayı mindən çox olacaq. İdmanın bəzi növlərində atletlər bu yoxlamadan bir neçə dəfə keçməli olacaqlar.

II Avropa Oyunları iyunun 21-dən 30-dək Minskdə keçiriləcək. Oyunlarda 50 ölkədən 4 mindən çox atlet iştirak edəcək.

### WADA öz qərarını verəcək

Dünya Antidopinq Agentliyinin (WADA) ekspertləri Rusiya antidopinq laboratoriyalarının məlumat bazasını yoxlamaq üçün Moskvaya səfər ediblər. Bu barədə Rusiya İdman Nazirliyinin mətbuat xidməti məlumat yayıb.

Məlumat üçün bildirək ki, WADA Rusiya Antidopinq Agentliyinin səlahiyyətlərini ötən il sentyabrın 20-də bərpa edib. Bu addımın başlıca şərti isə dekabrın 31-dək Moskvadakı antidopinq laboratoriyalarının məlumat bazasının yoxlanılması olub. Beynəlxalq ekspertlər noyabr və dekabr aylarında bu laboratoriyalarda olsalar da, avadanlıq sertifikatları Rusiya standartlarına uyğun gəlmədiyi üçün yoxlama apara bilməyiblər.

WADA-nın Rusiya idmançılarına qarşı yeniədən sanksiyalar tətbiq ediləcəyi bəyanatından sonra ekspertlərin yenidən bu laboratoriyalara gəlməsi vaxtı müəyyən olunub. Bugünlərdə WADA yenidən Rusiya Antidopinq Agentliyinin statusu məsələsinə baxmağı planlaşdırır və bu məsələ ilə bağlı həlledici qərar yanvarın 22-də veriləcək.



## Müşfiq İsayevin xatirəsinə həsr olunmuş güləş turniri keçirilib

Bakı İdman Sarayında 20 Yanvar şəhidi Müşfiq İsayevin xatirəsinə həsr edilən yeniyetmələr arasında sərbəst və yunan-Roma güləşi üzrə XXII açıq respublika turniri keçirilib. Yanvarın 11-də keçirilən yarışın açılış mərasimində gənclər və idman nazirinin müavini İsmayıl İsmayılov, Milli Olimpiya Komitəsinin vitse-prezidenti Xəzər İsayev, Azərbaycan Güləş Federasiyasının vitse-prezidenti Firdovsi Umudov çıxış ediblər.

(ardı 2-ci səhifədə)

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

"Uşaq və gənclərin fiziki və mənəvi inkişafı"

## Sağlam düşüncə tərzi gələcək uğurların təməlidir

Səh. 5




Yerli media nümayəndələrinin akkreditasiyasına start verilib Səh. 2

Ötən il Azərbaycan Velosiped İdmanı Federasiyası üçün uğurlu olub Səh. 3

Dəri əlcək ustalarımızın hazırlığı davam edir Səh. 3

"Autizm xəstəlik deyil, sadəcə fərqlilikdir" Səh. 4

Komandamız Xorvatiya Qran-Prisindən 10 medalla qayıdır Səh. 6

"Qarabağ"a pul vəsaiti ayrılıb Səh. 7

# Müşfiq İsayevin xatirəsinə həsr olunmuş güləş turniri keçirilib



(əvvəli 1-ci səhifədə)

Yarış iştirakçılarını salamlayan İsmayıl İsmayılov Azərbaycan Prezidenti İlham Əliyevin ölkəmizdə bədən tərbiyəsi və idmanın, o cümlədən güləşin inkişafına göstərdiyi diqqət və qayğıdan, habelə idmançılarımızın beynəlxalq yarışlarda qazandıqları uğurlardan söhbət açıb. Bildirib ki, son illər Azərbaycanda idman sürətlə inkişaf edir. Sevindirici haldır ki, bu idman növləri arasında güləş də özünəməxsus yer tutur. Ötən il ölkəmiz 50-dən artıq beynəlxalq turnirə ev sahibliyi edib.

Güləşin tarixən Azərbaycanda ən geniş yayılmış idman növlərindən biri olduğunu deyən Milli Olimpiya Komitəsinin vitse-prezidenti Xəzər İsayev qeyd edib ki, dövlətimizin idmana diqqət və qayğısının məntiqi nəticəsi olaraq son illər atletlərimiz yüksək nailiyyətlərə imza atıblar. Artıq Azərbaycan dünyada idman ölkəsi kimi tanınır.

Azərbaycan Güləş Federasiyasının vitse-prezidenti Firdovsi Umudov yarışın əhəmiyyətini yüksək qiymətləndirərək yeniyetmə pəhləvanlarımızın ötən il qazandıqları nailiyyətlərdən danışıb. O, vurğulayıb ki, respublika turniri bu il ölkəmizdə keçiriləcək XV Avropa Gənclər Yay Olimpiya Festivalına seçim xarakteri daşıyır.

Sonra Azərbaycanın dövlət himni səsləndirilib. Açılış mərasimi bədii hissə ilə davam edib.

Sonra MOK-un Ədalətli Oyunlar Komissiyası tərəfindən hazırlanan xüsusi mükafatlar təqdim olunub. Güləşçimiz Əbülfəz Nəsirov "Ədalətli oyun prinsiplərinə sadiq idmançı", Zaur Umarakaev (Rusiya) "Ədalətli oyun prinsiplərinə sadiq məşqçi", Yerbolat Muxametalinov (Qazaxıstan) isə "Ədalətli oyun prinsiplərinə sadiq hakim" mükafatına sahib çıxıb.

Tədbirdən sonra güləşçilər güclərini sınayıblar.

Yarış 20 Yanvar şəhidi Müşfiq İsayevin xatirəsini yad etmək, yeniyetmə güləşçilərin idman ustalığını artırmaq, perspektivli güləşçiləri aşkarlamaq, sərbəst və yunan-Roma güləşinin inkişafına və kütləviliyinə nail olmaq məqsədilə keçirilib.

İyulda Bakıda təşkil olunacaq XV Avropa Gənclər Yay Olimpiya Festivalının proqramında yer alan altı (45, 48, 51, 55, 60 və 65 kq) çəki dərəcələri üzrə keçirilən mübarizədə Azərbaycan pəhləvanları ilə yanaşı, Gürcüstan, Özbəkistan, Qazaxıstan və Rusiyadan olan güləşçilər də iştirak ediblər.

Yarışın ilk günündə 45, 48, 51, 55, 60 və 65 kiloqram çəki dərəcələrində sərbəst güləş üzrə 178 pəhləvan mübarizə aparıb.

Turnirdə Murad Haqverdiyev (45 kq), Ramiq Heybətov (48 kq), Kənan Heybətov (51kq), Ruslan Şıxıyev (55 kq), Əbülfəz Nəsirov (60 kq) və Cəbrayıl Həsənov (65 kq) fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. Komanda hesabında Azərbaycan 1-ci, Gürcüstan 2-ci, Rusiya isə 3-cü yeri tutub.

Yarışın sonuncu günündə 45, 48, 51, 55, 60 və 65 kiloqram çəki dərəcələrində yunan-Roma güləşi üzrə 79 idmançı mübarizə aparıb.

Gərgin idman mübarizəsi şəraitində keçən yarışda Tornike Şaynidze (45 kq, Gürcüstan), Əli Həsənov (48 kq), Elmir Əliyev (51 kq), Nihad Məmmədli (55 kq), Nika Broladze (60 kq, Gürcüstan) və Xasay Həsənli (65 kq) fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar.

Qeyd edək ki, komanda hesabında Azərbaycan birinci, Gürcüstan ikinci, Özbəkistan isə üçüncü yeri tutub.

# Azərbaycan Basketbol Federasiyası bəyanat verib

Azərbaycan Basketbol Federasiyasının (ABF) yanvarın 14-də iclası keçirilib. İclasda kişilər arasında 26-cı ölkə çempionatında yaranmış vəziyyətlə bağlı məsələ də müzakirə edilib. ABF ölkə çempionatını boykot edərək qanuna zidd hərəkətlərə yol verənlərə bağlı narahatlığını bildirib.

Qeyd olunub ki, Basketbol Federasiyası gənclərdən ibarət yığma komandanın Bakıda keçiriləcək Avropa Gənclər Olimpiya Festivalının hazırlığına başlıca önəm verir. Belə ki, Basketbol Federasiyasına qarşı təxribat xarakterli hərəkətlər bu qurumun normal fəaliyyətinə mane olur. Bununla əlaqədar, bütün məsuliyyət basketbol ictimayyəti adından danışmaq səlahiyyətini mənimsəyən bəzi basketbol "xadimlərinin" üzərinə düşür.

İclasda bildirilib ki, bütün dünyada olduğu kimi, istənilən idman təşkilatı təsdiq edilmiş Nizamnaməyə əsasən fəaliyyət göstərir. Nizamnaməyə uyğun olaraq, federasiya rəhbərliyi hesabat-seçki konfransında bu qurum üzvlərinin səs verməsi yolu ilə seçilir.

Azərbaycan Basketbol Federasiyası basketbolçulara, bu idmanın inkişafında xidmətləri olan mütəxəssislərə müraciət edərək, ayrı-ayrı şəxslər tərəfindən ölkə çempionatının boykotuna sövq edən addımları qətiyyətlə pisləyir.

# Formula-1

## Yerli media nümayəndələrinin akkreditasiyasına start verilib

"Bakı Şəhər Halqası" Əməliyyat Şirkəti (BŞH) aprelin 26-28-də dördüncü dəfə keçiriləcək Formula-1 Azərbaycan Qran-Prisinə yerli media nümayəndələrinin akkreditasiyasına start verib.

Azərbaycan Qran-Prisi də daxil olmaqla bütövlükdə 2019-cu il Formula-1 dünya çempionatında yer alan hər bir yarış üçün media nümayəndələrinin akkreditasiyası Beynəlxalq Avtomobil Federasiyası (FIA) və "Formula One Management" (FOM) şirkəti tərəfindən kurasiya olunur.

Yerli media nümayəndələrinin yarışa qeydiyyatı əməliyyat şirkətinin vasitəçiliyi ilə həyata keçirilir. Akkreditasiya prosesi fevralın 28-dək davam edəcək. Qeydiyyatdan keçmək istəyən jurnalistlər BŞH-nin rəsmi veb-səhifəsinə daxil olaraq müvafiq formanı doldurmalı və tələb olunan sənədləri sistemə yüklədikdən sonra onlayn qaydada müraciət etməlidirlər. Natamam və ya vaxtından gec göndərilmiş müraciət formaları nəzərə alınmayacaq.

BŞH-nin marketinq və kommunikasiya şöbəsinin rəhbəri, milli mətbuat katibi Nigar Arpadarai yerli media nümayəndələrini qeydiyyatdan keçməyə çağıraraq deyib: "Formula-1 yarışlarında iştirak edən media nümayəndələri müəyyən rəsmi standartlara və kriteriyalara əməl etməlidirlər. Yalnız həmin göstəricilərə tam cavab verən jurnalistlər FIA və FOM-un təsdiqi ilə yarışa buraxılış vəsiqəsi əldə edəcəklər. Fürsətdən istifadə edərək yarışı işıqlandırmaq istəyən bütün jurnalistləri bu kriteriyalarla yaxından tanış olmağa və Formula-1 Azərbaycan Qran-Prisinə gecikmədən qeydiyyatdan keçməyə çağırırıq".

* * *

2018-ci ildə Formula-1 yarışlarının "Liberty Media"dan olan sahibləri ənənəvi "Grid Kids"lərdən imtina ediblər. İndi uşaqlar üzərində yürüşçülərin nömrələri yazılmış lövhəcikləri start meydançasına "Grid Kids" layihəsi çərçivəsində çıxaracaqlar. Əslində bu, yeni ideya deyil - futbolda oyunçular meydana uşaqlarla birgə çıxır və bəzi klublar bu hesaba pul qazanırlar.

İngiltərə Premyer-Liqasında bəzi komandalar matçdan əvvəl meydana çıxmaq hüququ verən biletləri satırlar. Bu biletlərin qiyməti 700 funt sterlinqə çatır. Formula-1 yarışlarında isə uşaqlar start meydançasına pulsuz çıxmaq hüququ əldə edirlər. Bunu "Liberty Media"nın nümayəndəsi də təsdiqləyib. O deyib: "Biz uşaqların start meydanında görünməsi müqabilində ödəniş almırıq. Bu uşaqlar onların kartinqdə və təhsildə uğurları nəzərə alınmaqla milli idman klubları və müvafiq mərhələnin promouterləri tərəfindən seçilir. Valideynlər və uşaqlar trasa müstəqil şəkildə gəlir və bunun müqabilində start meydançasında öz ölkəsini təmsil etmək, milli himni oxumaq imkanı əldə edirlər. Həmin uşaqlara kombinezonlar, ayaqqabı, kepkalar, habelə uşaqların və onların valideynlərinin yürüşlərə baxmaları üçün bilet verilir".

* * *

"Liberty Media"nın 2020-ci ildə Hollandiya Qran-Prisinin Zandfort trasında yenidən keçirilməsində maraqlı olduğu barədə yazmışdıq. Holland şəhərinin meri Nik Meyer bəyan edib ki, bələdiyyə Formula-1 yarışlarının qayıtmasına etiraz etmir. Nik Meyer "Formula-1 Hollandiyada böyük dəstəyə güvənə bilər. Biz artıq bunu nümayiş etdirmişik", - deyə bildirib.

O, əlavə edib ki, indi işi avtodrom sahibləri davam etdirməlidirlər. Onlar mərhələnin təşkili üçün zəruri vəsaiti bir neçə ay ərzində toplamalıdırlar. Qabaqcadan aparılan dəyərləndirmələrə görə, Qran-Pri mərhələsi 30-40 milyon avroya başa gələcək. Əgər avtodrom sahibləri bu vəsaiti əldə edə bilməsələr, o zaman yürüş Assendəki trasa köçürüləcək.

"IJmider Courant" qəzetinin bu yaxınlarda apardığı sosial sorğunun nəticələrinə görə, Şimali Hollandiya əyalətlərinin digər əhalisi ilə müqayisədə Zandfort sakinləri yürüşə daha çox maraq göstərirlər. Trasın bilavasitə



yaxınlığında yerləşən Blumindal və Hemstede bələdiyyə şuraları yollardakı trafiklə bağlı problemlər üzündən Formula 1 yarışlarının Zandforta yenidən qayıtmasını istəmirlər.

* * *

2019-cu ildə "Racing Point"da Lens Strollun komanda yoldaşı təcrübəli Serxio Peres olacaq.

Bunu Formula-1 Kanada Qran-Prisinin promouteri Fransua Dyumontye bildirib. O hesab edir ki, meksikalı ilə bir komandada çıxış etməsi həmvətəninin xeyrinədir, çünki Strollun nəyə qadir olduğu Pereslə müqayisədə aydın olacaq.

Fransua Dyumontye deyib: "Lens üçün "Racing Point"ə keçid yaxşı xəbərdir, çünki bu, rəqabətədavamlı komandadır. Mən şadam ki, Lourens Stroll bu komandanı alıb. Artıq deyə bilərik ki, "Racing Point" Kanada komandasıdır.

# Uşaq Paralimpiya Komitəsinin inkişaf perspektivləri müzakirə olunub

UNICEF-in Azərbaycan nümayəndəliyində Azərbaycan Milli Paralimpiya Komitəsinin (MPK) prezidenti İlqar Rəhimov və nümayəndəliyin rəhbəri Edvard Karvardin arasında görüş keçirilib.

Görüşdə Komitənin nəzdində fəaliyyət göstərən Uşaq Paralimpiya Komitəsinin inkişaf etdirilməsi ilə bağlı görülən işlər və qarşıda duran vəzifələr müzakirə edilib.



İlqar Rəhimov məmnunluqla vurğulayıb ki, UNICEF-in ölkəmizdəki nümayəndəliyi Azərbaycanda uşaq Paralimpiya hərəkatı yarandığı ilk dövrdən onun inkişafına fəal dəstək verib. Bunun nəticəsində hazırda respublikamızın bölgələrindən sağlamlıq imkanları məhdud yüzlərlə uşaq idmanın səkkiz növü üzrə bu hərəkata qoşulub.

Edvard Karvardin beynəlxalq təcrübədə ilk dəfə olaraq, AMPK-nın nəzdində uşaq Paralimpiya hərəkatının yaradılmasının sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətə inteqrasiyasına, onların reabilitasiyasına güclü təkan verdiyini bildirib. O, bundan sonra da bu hərəkata dəstək verəcəklərini qeyd edib.

Görüşdə uşaq Paralimpiya hərəkatının daha da inkişaf etdirilməsi məqsədilə növbəti beş il müddətinə UNICEF-in Azərbaycan nümayəndəliyi ilə AMPK arasında növbəti memorandumun imzalanması və bu məqsədlə işçi qrupunun yaradılması qərara alınıb.

Qeyd edək ki, 2013-cü ilin sentyabrında beynəlxalq təcrübədə ilk dəfə AMPK-nın nəzdində Uşaq Paralimpiya Komitəsi yaradılıb. Ölkəmizdə uşaq Paralimpiya hərəkatının inkişaf etdirilməsi məqsədilə 2013-cü ilin oktyabrında UNICEF-in Azərbaycan nümayəndəliyi ilə Komitə arasında anlaşma memorandumu imzalanıb.

# Yığmamız səfərdə İsveç millisi ilə qarşılaşıb

Voleybol üzrə kişilərdən ibarət Azərbaycan yığması Avropa çempionatının seçmə mərhələsi çərçivəsində sonuncu oyununu keçirib.

Seçmə mərhələnin "G" qrupunda qərarlaşan millimiz səfərdə İsveç yığmasının qonağı olub.

İtaliyalı baş hakim Roberto Barisin idarə etdiyi oyun İsveç millisinin 3:0 hesablı qələbəsi ilə başa çatıb.

"G" qrupunda 17 xalla birinci pillədə qərarlaşan Yunanıstan yığması turnirin final mərhələsinə adlayıb.

Kişilər arasında voleybol üzrə 31-ci Avropa çempionatının ötən ilin avqustunda start verilən seçmə mərhələsi yanvarın 9-da başa çatıb. Təsnifat yarışlarında iştirak edən 26 komanda yeddi qrupda mübarizə aparıb. Seçmə mərhələnin yekununda 12 komanda - 7 qrupun hər birinin qalibləri və qrup ikinciləri arasında ən yaxşı göstəricilərə sahib olan beş komanda Avro-2019-un final mərhələsinə vəsiqə qazanacaq.

Final mərhələsinin təşkilatçıları olan 4 komanda - Fransa, Sloveniya, Belçika və Hollandiya yığmaları, habelə əvvəlki Avropa çempionatının yekunlarına əsasən ən yaxşı nəticə göstərmiş Rusiya, Almaniya, Serbiya, İtaliya, Bolqarıstan, Çexiya, Polşa və Türkiyə milliləri seçmə mərhələdə iştirak etməkdən azad olunub.



# Ötən il Azərbaycan Velosiped İdmanı Federasiyası üçün uğurlu olub

*2018-ci il Azərbaycan Velosiped İdmanı Federasiyası (AzVİF) üçün kifayət qədər uğurlu illərdən biridir. Federasiya tərəfindən təşkil edilən maarifləndirici tədbirlər və layihələr təkcə yeniyetmə və gənclərdə deyil, eyni zamanda, daha yuxarı yaş qrupuna aid olan insanlar arasında da velosipedə marağı xeyli artırıb.*



İlin yekunlarına həsr olunan tədbir zamanı federasiyanın 1-ci vitse-prezidenti, Avropa Velosipedçilər Birliyi Rəhbər Komitəsinin üzvü Sahib Ələkbərov görülən işlər barədə ümumi məlumat verərək qeyd edib ki, ötən il ərzində Samir Cəbrayılov, Kiril Pozdnyakov, Sergey Omelçenko, Musa Mikayılzadə, Yelena Pavluxina, Kərim Şirəliyev və Viktoriya Sidorenko kimi idmançılarımız bir sıra nüfuzlu beynəlxalq yarışlarda uğurlu nəticələr əldə ediblər. Ölkəmizdə keçirilən idman yarışlarında, xüsusi ilə də, ötən ilin iyun ayında Bakıda təşkil olunan BMX üzrə dünya çempionatının keçirilməsində Gənclər və İdman Nazirliyinin və Milli Olimpiya Komitəsinin dəstəyini hər zaman hiss etdiklərini xüsusi olaraq vurğulayan federasiya rəsmisi bu işlərdə əməyi olanların hamısına minnətdarlığını bildirib.

Daha sonra AzVİF-in baş katibi, Beynəlxalq Velosipedçilər İttifaqının Yaxın Şərq və Asiya ölkələri üzrə texniki nümayəndəsi Fərhad Əliyev ötən il ərzində idmançılarımızın beynəlxalq yarışlarda əldə etdiyi nəticələr barədə məlumat verib. 2018-ci ilin əsas idman hadisəsi təbii ki, iyun ayında ölkəmizin velosiped idmanının BMX növü üzrə (Olimpiya idman növü) dünya çempionatına ev sahibliyi etməsi idi. Fərhad Əliyev Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində bu yarışın da yüksək səviyyədə keçirildiyini bildirib.



Planetin müxtəlif ölkələrindən 1500-dən artıq idmançının iştirak etdiyi və 50-dən çox ölkədə canlı yayımlanan dünya çempionatının təşkilatçılıq səviyyəsi Beynəlxalq Velosipedçilər İttifaqı (UCI) tərəfindən olduqca yüksək qiymətləndirilib. Turniri izləmək üçün ölkəmizə gələn UCI prezidenti David Lappartien Prezident İlham Əliyevlə görüşündə Azərbaycanda bütün beynəlxalq idman tədbirlərinin uğurla keçirildiyini, BMX üzrə dünya çempionatının da ən yüksək standartlar səviyyəsində təşkil edildiyindən məmnunluğunu ölkə başçısının diqqətinə çatdıraraq, bütün bunlara görə dövlət başçısına minnətdarlığını bildirib.

Hesabatda o da qeyd olunub ki, 2018-ci ildə Azərbaycanın şosse velosipedi üzrə yeniyetmə və gənclərdən ibarət yığma komandalarının üzvləri dünya və Avropa çempionatları ilə yanaşı, bir sıra beynəlxalq turnirlərdə də iştirak ediblər. May ayında Türkiyənin Ordu şəhərində təşkil olunmuş Açıq çempionatda yeniyetmə qızların kriterium yarışında idmançımız Viktoriya Sidorenko fərqlənərək fəxri kürsün ən yüksək pilləsində yer alıb. Heyəti Nəcəf Bağırov, Xankişi İsgəndərov, Qadir Mustafayev, Şahin Eyvazov, Əli Qurbanov və Mahmud Məmmədovdan ibarət olan gənclər yığmamız isə qrup və kriterium ötüşmələrinin yekununda komanda hesabında bürünc medala layiq görülüblər.

İyulda qardaş ölkənin Kastamonu şəhərində keçirilən beynəlxalq turnir də idmançılarımızın uğurlu çıxışı ilə yadda qalıb. Yarışın gənclər kateqoriyasında fəxri kürsünün hər üç pilləsində Azərbaycan velosipedçiləri qərarlaşıblar. Yüz kilometrlik marşrutu Mahmud Məmmədov hamıdan tez qət edərək finiş xəttini birinci keçib. Yığmamızın digər üzvləri İvan Orlov və Xankişi İsgəndərov isə müvafiq olaraq, 2-3-cü yerləri tutublar. Yığmamız komanda hesabında da qalib adına layiq görülüb.

Heyətində Elit və U-23 yığma komandalarımızın üzvlərinin yer aldığı “Synergy Baku Cycling Project” kontinental komandasının üzvləri də il ərzində beynəlxalq turnirlərdə uğurla çıxış ediblər. Kiril Pozdnyakov Türkiyədə Alanya Qran-Prisinin, Mersin Turunun 1-ci mərhələsinin, Rusiyada “Moskvanın 5 halqası” yarışının 4-cü mərhələsinin, Belçikada “Dentergem” yarışının qalibi olub. Digər nüfuzlu yarışlarda Samir Cəbrayılov, eləcə də, Kiril Pozdnyakov mükafatalayiq yerlər tutublar. Martda Türkiyədə keçirilən Side Qran-Prisində “Synergy Baku” komanda hesabında 1-ci olub.

Dekabrın əvvəllərində Portuqaliyada keçirilən trek velosipedi üzrə ənənəvi “Prova Internacional Municipo de Anadia” turnirində yığma komandamızın üzvü Sergey Omelçenko uğurlu nəticə ilə yadda qalıb - Beynəlxalq Velosipedçilər İttifaqının 1-ci kateqoriyalı yarışında təmsilçimiz keyrin növündə bürünc medala layiq görülüb və Tokio-2020 Olimpiadasına lisenziya almaq üçün öz hesabına 160 xal yazdırıb.





Azərbaycan Velosiped İdmanı Federasiyası və Beynəlxalq Velosipedçilər İttifaqı arasında şosse velosipedi üzrə U-23 yığma komandamızın üzvləri Musa Mikayılzadə və Kərim Şirəliyevin İsveçrədə yerləşən Dünya Velosiped Mərkəzində 6 aylıq təcrübə keçməsi barədə razılıq əldə olunub. İdmançılarımız 2019-cu ilin yanvarından iyulunadək burada hazırlıq proseslərində iştirak edəcək və Dünya Velosiped Mərkəzinin yeni formalaşdırılmış komandasının heyətində yarışlarda iştirak etməklə öz ustalıqlarını artıracaqlar.



İlin son günlərində Azərbaycan Velosiped İdmanı Federasiyası BMX velosipedi üzrə dünya çempionatının yüksək təşkilatçılığına görə təltif edilib. Gənclər və İdman Nazirliyinin ilin ən yaxşılarının adlarını açıqladığı tədbirdə federasiya “İdman yarışlarının yüksək səviyyədə təşkili və keçirilməsinə görə” xüsusi mükafata layiq görülüb.

Daha sonra AzVİF-in 1-ci vitse-prezidenti Sahib Ələkbərov əldə olunmuş uğurlarla yanaşı, mövcud olan bəzi çatışmazlıqları da tədbir iştirakçılarının diqqətinə çatdırıb. İdmanda dopinqə qarşı mübarizənin daha da gücləndirilməsinin vacibliyindən danışan Sahib Ələkbərov uğurlu nəticələrin təmiz mübarizə şəraitində qazanılması üçün Azərbaycan Milli Antidopinq Agentliyi ilə sıx əməkdaşlıq edildiyini, dopinqdən istifadənin, ümumiyyətlə, xüsusən də yeniyetmələr arasında yolverilməz olduğunu, bu sahədə ciddi məlumatlandırma və maarifləndirmə tədbirləri aparmalı olan məşqçilər korpusunun üzərinə böyük məsuliyyət düşdüyünü vurğulayıb. O, qeyd edib ki, hazırda federasiyanın qarşısında duran əsas məqsəd Respublika Velotreki və BMX Veloparkı kimi mövcud idman qurğularından daha səmərəli istifadə etmək, yeniyetmə və gəncləri diqqət mərkəzində saxlamaqla onların inkişafına nail olmaq, klub və cəmiyyətlərin fəaliyyətini daha da gücləndirməkdir. Bu istiqamətdə Respublika Olimpiya Velosiped Məktəbinin fəaliyyəti müsbət nümunə kimi göstərilib.

2019-cu il üçün əsas prioritet istiqamətlərdən birinin Tokio-2020-yə lisenziya xallarının toplanması olduğunu diqqətə çatdıran Sahib müəllim artıq həm şosse, həm də trek velosipedində dördilliyin zirvə yarışına lisenziya xalları verən yarışlar silsiləsinin start götürdüyünü və prosesin ilin sonunadək davam edəcəyini diqqətə çatdırıb.

Tədbirin sonunda il ərzində fərqlənmiş idmançılardan Ayan Xankişiyeva, Nəcəf Bağırov, Nikita Sitov, Viktoriya Sidorenko və Sergey Omelçenko, məşqçilərdən Əbülfəz Məmmədov, Aleksey Qorikov və digərlərinə, həmçinin AzVİF-lə yaxından əməkdaşlıq edən qurumların nümayəndələrinə federasiyanın mükafatları təqdim edilib.

## Qrossmeysterimiz Paul Keres memorialının blits turnirinin qalibidir

Azərbaycanlı qrossmeyster Qədir Hüseynov Tallinn şəhərində keçirilən Paul Keres memorialında uğurla çıxış edib. 11 ölkədən 88 şahmatçının iştirak etdiyi turnirdə Qədir Hüseynov keçirdiyi 9 oyundan 7 qələbə və 2 heç-heçə ilə blits turnirini birinci yerdə başa vurub. Memorial çərçivəsində keçirilən rapid yarışında isə 7 oyunda 6 xal yığan şahmatçımız üçüncü yeri tutub.

* * *

Yanvarın 22-dən 31-dək Cəbəllütariqdə beynəlxalq şahmat festivalı keçiriləcək.

Ənənəvi festivalın proqramına İsveçrə sistemi üzrə keçirilən və on turdan ibarət “Masters” turniri də daxildir. Turnirdə 244 şahmatçı iştirak edəcək. Onlardan 120-si qrossmeyster, o cümlədən 14-ü əmsalı 2700-dən çox olan şahmatçılardır.

Bu festival İsveçrə sistemi üzrə keçirilən ən güclü turnirlərdən hesab olunur. Yarışlarda Azərbaycan şahmatçıları Arkadi Naydiç (2734) və Rauf Məmmədov (2703) da iştirak edəcəklər.

## Dəri əlcək ustalarımızın hazırlığı davam edir

Kişi boksçulardan ibarət Azərbaycan millisinin yeni ilin ilk təlim-məşq toplanışı davam edir.

Komandanın baş məşqçisi Vaqif Şirinovun məşqlərə dəvət etdiyi idmançıların funksional hazırlığının 80 faizini fiziki, 20 faizini isə taktiki-texniki təmrinlər təşkil edir. Məşqlərin yüksək səviyyədə davam etməsi üçün komanda və məşqçi heyəti üçün hər cür şərait yaradılıb. Təlim-məşqlərdə ölkə çempionatının finalçıları ilə yanaşı, məşqçilərin diqqətini cəlb edən gənc boksçular da iştirak edirlər.



Göygöldə təşkil olunan təlim-məşq toplanışı 21 gün davam edəcək və yanvarın 27-də başa çatacaq. Toplanış fevral ayında Rusiyada keçiriləcək yoldaşlıq görüşlərinə və Bolqarıstanda təşkil olunacaq beynəlxalq turnirə hazırlıq məqsədi daşıyır.

## Qılıncoynadanlarımız Ümumrusiya açıq “Yeni il” turnirində yarışıblar

Kazanda qılıncoynatma üzrə Ümumrusiya açıq “Yeni il” turniri keçirilib. 130 yeniyetmə oğlan şpaqaçının mübarizəsində qılıncoynadanlarımızdan Barat Quliyev, Raul Aruslanov və Kənan Məlikzadə qüvvələrini sınayıblar. Barat Quliyev qrup mərhələsində keçirdiyi 5 görüşdən 2-ni qalib başa vurmaqla pley-offa yüksəlib. 1/64 finalda Rusiya idmançısı Aleksey Borodini məğlub edən təmsilçimiz növbəti mərhələdə digər rusiyalı idmançı Aleksey Vinoqradova uduzub.

Digər şpaqaçımız Raul Aruslanov da qrup mərhələsini adlamağı bacarıb. Qrupda keçirdiyi 6 görüşdən 2-də qalib gələn idmançımız 1/64 finalda Tataristan idmançısı Daniel Əskərova məğlub olub. Qrupda keçirdiyi 6 görüşdən 1-də qələbə qazanan K.Məlikzadə isə mübarizəni erkən dayandırıb.

Yüz otuz yeddi yeniyetmə qız şpaqaçının yarışında isə ölkəmizi Azərin İdriszadə, Nazilə Rəhimova, Alfiyə Abdinova və Aysu Nuriyeva təmsil ediblər.



Qrup mərhələsində keçirdiyi 6 görüşdən 3-də qalib gələn A.İdriszadə 1/64 finalda rusiyalı Yekaterina Tarasovaya uduzub. Qrupda keçirdiyi 6 görüşdən 2-də qələbə qazanan N.Rəhimova isə 1/64 finalda Özbəkistan idmançısı Sevara Rəhimovaya məğlub olub. A.Abdinova da 6 görüşdən 2-də qalib gələrək pley-offa yüksəlib. Şpaqaçımız 1/64 finalda rusiyalı Mariya Melexinaya uduzub. Altı görüşdən 1-də qələbə əldə edən A.Nuriyeva isə qrup mərhələsini adlaya bilməyib.

***İdman və bədən tərbiyəsi həyatımızın ayrılmaz hissəsidir. Bu yolla biz sağlam orqanizmə yiyələnə bilirik. İdman həm fiziki, həm də mənəvi tərbiyənin onurğa sütunu hesab olunur. Müşahidələr göstərir ki, dünyaya gələn uşaqlarda bir sıra xəstəliklərin olması istisna deyil. Həmin xəstəliklərin sağalması üçün həkim nəzarəti vacibdir. Elə xəstəliklər də var ki, onların sağalması çətin və uzun sürür. Çıxış yolu yenə də idmandan və fiziki hazırlıqdan keçir.***

# *“Autizm xəstəlik deyil, sadəcə fərqlilikdir”*



Bu gün yaşadığımız dünyada autizm adlı bir xəstəlik də var. Elmi-texniki tərəqqi, səhiyyə və tibb nə qədər inkişaf etsə də, bu sahələr autizm qarşısında hələ ki, acizdir.

Məlumat üçün bildirək ki, autizm üç yaşından əvvəl başlayan və ömür boyu sürə bilən, ictimai qarşılıqlı təsirə və ünsiyyətə zərər verən, məhdud və təkrarlanan davranışlara gətirib çıxaran, beynin inkişafına mane olan bir xəstəlikdir. Autizm beyinin bir çox qisminə təsir edir. Lakin bu təsirin necə inkişaf etdiyi məlum deyil. Valideynlər, ümumiyyətlə, uşaqlarının həyatının ilk iki ilində əlamətləri hiss edirlər. Hesablamalar göstərir ki, indi dünyada hər 68 uşaqdan biri autizmli doğulur. Autizmin dünyada nədən qaynaqlandığı bəlli olmadığı üçün bu gün onun tibb sahəsində heç bir müalicə üsulu yoxdur. Reabilitasiya yolu isə qismən də olsa idmandan keçir.

Bu gün ölkəmizdə autizmli uşaqların problemləri ilə bağlı bir sıra qurumlar fəaliyyət göstərir. Onların arasında fəaliyyətin daha genişləndirən təşkilatlardan biri Autizmlilərin İdman Klubu İctimai Birliyidir. Birliyin nəzdində bu xəstəlikdən əziyyət çəkən uşaqların sağlamlığı üçün hər şərait yaradılıb. Artıq neçə ildir ki, autizmlilərin idman klubunda bu sahədə yeni uğurların əldə olunmasına səy göstərilir. Kluba rəhbərlik edən Elnur Məmmədli ilə görüş zamanı bunun bir daha şahidi olduq. Elnur müəllim qurumun fəaliyyəti ilə bağlı bunları dedi: “Biz çalışırıq ki, autizmdən əziyyət çəkən uşaq və yeniyetmələrin reabilitasiyasına kömək olaq. Bildiyiniz kimi, autizmdən əziyyət çəkənlərə idmanla məşğul olmaq məsləhət görülür. Bu məqsədlə uşaq və yeniyetmələrə stolüstü tennis, üzgüçülük, atletika, velosiped idman növləri üzrə təlimlər keçirilir. Müntəzəm olaraq müxtəlif yarışlarda gücümüzü sınayırıq. Çalışırıq ki, onlar cəmiyyətdən təcrid olmasınlar. Hətta ölkə hüdudlarından kənarda da onların öz bacarıqlarını nümayiş etdirmələrinə şərait yaradırıq. Belə ki, ötən il bizim uşaqlar Türkiyədə keçirilən iki yarışda iştirak ediblər. Velosipedsürmə yarışlarında idmançılarımızdan biri birinci, digəri isə ikinci yerə layiq görülüb. Stolüstü tennis yarışında təmsilçimiz gümüş medala yiyələnib. Məqsədimiz 2019-cu ildə beynəlxalq yarışlarda daha uğurlu nəticələr qazanmaqdır”.

Söhbət zamanı öyrəndik ki, haqqında danışılan klub İctimai Birlik kimi digər qurumlarla sıx əlaqə quraraq öz fəaliyyət dairəsini genişləndirib. Klubda yaş həddi yoxdur. Məsələn, ən kiçik idmançının 5, ən böyünün isə 21 yaşı var. İctimai Birliyin nəzdində Azərbaycan xüsusi idmançılar idman klubu, Bakı Autizm Klubu, “Qəbələ”,”Neftçi” və “Xəzər” idman autizm klubu və digər klublar var.

Elnur Məmmədli onu da qeyd etdi ki, bu gün dünyada tanınan və nüfuz sahib olan insanlar arasında bir vaxtlar autizmdən əziyyət çəkənlər az deyil. “Onları hamı tanıyır. Frans Kafka, Lüdviq van Bethoven, Fridrix Nitşe, Albert Eynşteyn, Nikola Tesla, Tomas Edison, Volfqanq Amadey Motsart, İsaak Nyuton, Vinsent Van Qoq, Ceyn Austen, “Microsoft” şirkətinin yaradıcısı Bill Qeyts və başqaları. İdman sahəsində də bu cür xəstəliklə mübarizə apara bilən simalar yetərincədir. İnandırıcı olmasa da, üzgüçülük üzrə dəfələrlə Olimpiya çempionu Maykl Felps də kiçik yaşlarından autizm xəstəsi olub. Lakin göründüyü kimi, onlar bu xəstəliyə boyun əyməyərək özlərini təsdiq etməyə müvəffəq olublar. Təcrübələr də göstərir ki, autizmli insanlar digərlərinə nisbətən daha çox uğur qazanırlar. Bir daha demək istəyirəm ki, autizm xəstəlik deyil, sadəcə fərqlilikdir”, - deyə müsahibimiz bildirdi.



Qeyd etdiyimiz kimi, bu gün ölkəmizdə autizmli uşaqların sayı az deyil. Valideynlər övladlarının bu xəstəlikdən qurtulması üçün bütün imkanlarını səfərbər edirlər. Elnur Məmmədli bu məsələyə də aydınlıq gətirdi: “Autizm ciddi bir problemdir. Belə ki, müşahidələr göstərir ki, bir sıra ailələrdə autizmli övladlar var. Ancaq nədənsə valideynlər ya bunu gizlədir, ya da böyük məsrəf müqabilində xarici ölkələrə təlimlərə göndərirlər. Halbuki ölkəmizdə daha səmərəli formada təlim üçün şərait var. Bu xəstəliyi gizlətmək olmaz. Təlimlərə nə qədər tez başlasalar, reablitasiya da bir o qədər tez olar. Təbiidir ki, dünyada autizmdən tamamilə can qurtaran insan yoxdur. Lakin 70-90 faiz nəticə qazanmaq mümkündür. Bu cür uşaqlarla təcrübəli təlimçilər məşğul olmalıdır ki, nəticə əldə olunsun. Belə ki, bir uşaqla bəzən bir, bəzən isə iki təlimçi məşğul olur. Əfsuslar ki, bu gün respublikada bu sahə üzrə təlimçi hazırlayan təhsil müəssisəsi yoxdur. Ona görə də biz daha çox sosial elmlər və psixologiya fakültələrinin və AzDBTİA-nın məzunlarına üstünlük veririk. Lakin əksər ölkələrdə, məsələn Türkiyədə artıq bu ixtisas üzrə peşəkar mütəxəssislər hazırlanır. Biz hələ ki, onların təcrübəsindən yararlanmağa çalışırıq. İndiyə kimi respublikada bu sahə üzrə təxminən 70-ə yaxın mütəxəssis hazırlanıb. Həmin mütəxəsisslərin bir hissəsi bizimlə birlikdə işləyir”.

Qeyd etdiyimiz kimi autizmli uşaqların həyatında idman əsas rol oynayır. Autizmlilərin İdman Klubunun təşkilatçılığı ilə keçirilən idman tədbirləri və görüşlər məhz bu amala xidmət edir. Belə ki, yarandığı gündən etibarən klub autizmli uşaqların idman yarışlarında iştirakını təmin edib. 2017-ci ildə “Autizmli gənc və uşaqlar arasında ilk dəfə atletika yarışı üzrə turnir təşkil olunub. Yarışlar 4 yaş qrupu üzrə keçirilib. Turnirdə “Autizimlilərin idman klubu”, “Mədinə” Tibb Mərkəzi, KANNER Mərkəzi, Bakı Autizim İdman Klubunun və digər qurumların 40-dan çox təmsilçisi iştirak edib. Ötən il Dənizkənarı Milli Parkın Ağ şəhər ərazisində Azərbaycan Xalq Cumhuriyyətinin 100 illik yubileyi münasibətilə autizmli uşaq, yeniyetmə və gənclər arasında velosiped yarışı keçirilib. Autizmli uşaqlara dəstək veloyürüşü Azərbaycan Velosiped İdmanı Federasiyasının (AzVİF), Respublika Olimpiya Velosiped Məktəbinin köməyi ilə təşkil edilib.

Qeyd etdiyimiz kimi, Autizmlilərin İdman Klubu İctimai Birliyi də öz işini digər qurumlarla qarşılıqlı əməkdaşlıq şəraitində qurmağa çalışır.

***Anar Əhmədov***

## Tanınmış qrossmeyster Vüqar Həşimovun xatirəsi anılıb

Yanvarın 11-i Azərbaycanın görkəmli şahmatçısı Vüqar Həşimovun anım günü idi. Dünyanın parlaq zəka sahiblərindən biri olan Vüqarın əbədiyyətə qovuşmasından beş il ötür.



Bununla əlaqədar görkəmli şahmatçının yaxınları, şahmatçılar və idman ictimaiyyətinin nümayəndələri yanvarın 11-də ikinci Fəxri Xiyabana gələrək mərhum şahmatçının məzarını ziyarət ediblər.

Tədbir iştirakçıları Vüqar Həşimovun məzarı önünə gül dəstələri qoyaraq, onun xatirəsinə ehtiramlarını bildiriblər.

Mərhum şahmatçının atası Qasım Həşimov oğlu Vüqarın Azərbaycan və dünya şahmat tarixində qoyduğu izin heç vaxt silinməyəcəyini vurğulayaraq deyib: “Vüqar karyerası ərzində dünya və Azərbaycan şahmat tarixində dərin iz buraxıb. Onun ən böyük arzularından biri də dünya çempionu tituluna yiyələnib şahmat tacını Azərbaycana qaytarmaq idi. Dünyanın aparıcı şahmat mütəxəssisləri də bu fikirdə idilər ki, Vüqar şahmat tacına sahib ola bilər. Təəssüf ki, bu, ona qismət olmadı. Çox şadam ki, xalqımız Vüqarı sevir, onun xatirəsini əziz tutur. Vüqar dünyada həm məşhur şahmatçı, həm də gözəl şəxsiyyət kimi tanınırdı. Veyk-an-Zee turnirində Vüqarın adına iki mükafatın təsis edilməsi təsadüfi deyil. Beş ildir ki, həmin mükafat dünyanın ən alicənab şahmatçılarına təqdim olunur. Dünyanın bir çox ölkələrində Vüqarın xatirəsinə turnirlər təşkil edilir. Azərbaycanda hər il keçirilən ənənəvi “Shamkir Chess” beynəlxalq turnirində dünyanın ən nüfuzlu şahmatçıları iştirak edirlər. Braziliyada Vüqar Həşimov adına şahmat komandası yaradılıb. Vüqar Azərbaycanı bütün yarışlarda həm də layiqli Vətən övladı kimi təmsil edirdi”.

Əməkdar məşqçi Xanlar Allahverdiyev, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının şahmat kafedrasının professoru Bəxtiyar Rüstəmov, idman jurnalisti Sənan Şəfizadə çıxış edərək Vüqar Həşimovun qısa, lakin şərəfli ömür yolundan, uğurlu karyerasından danışıblar.

Şahmat tariximizin erkən sönən ulduzu 1986-cı il iyulun 24-də Bakıda anadan olub. Şahmata uşaq yaşlarından maraq göstərən Vüqar uşaqlıq illərində “Şahmat klubu” verilişindəki çıxışları ilə tanınıb. 2002-ci ildə qrossmeyster adını alan Vüqar Həşimov buna qədər isə üç dəfə Azərbaycan çempionu olub. Mərhum qrossmeyster müxtəlif yaş kateqoriyalarında dünya və Avropa çempionatlarının müxtəlif əyarlı 21 medalını qazanıb, 50-dən artıq beynəlxalq turnirin qalibi olub. Vüqar Həşimovun 2009-cu ildə Azərbaycan yığmasının heyətində Avropa çempionatında həlledici görüşdə qələbəsi şahmat tariximizdə ilk dəfə Avropa çempionluğunun qazanılmasında həlledici rol oynayıb. O, ömrünün son anına qədər dünyanın ən güclü şahmatçılarından biri hesab edilirdi. Onun vaxtsız ölümü dünya şahmat aləmi üçün böyük itki oldu.

## *“Arzu kuboku” yarışlarına yekun vurulub*

Azərbaycan Respublikası Atçılıq Federasiyasının (ARAF) təşkilatçılığı ilə ilin ilk konkur yarışı - “Arzu kuboku” yarışları keçirilib.

Yarış “E”, “M” və “S” kateqoriyaları üzrə təşkil olunub.

Maneələrin hündürlüyü 80-85 santimetr olan “E” kateqoriyalı yarışda 14 idmançı birincilik uğrunda mübarizə aparıb. “Walonka” ləqəbli atla “Elite Horse & Polo Club”un idmançısı Ramil İbrahimov birinci olub. “Light Limerick” ləqəbli atla Rəvan Əhmədov ikinci, “Rodrigo” ləqəbli atla Emin Rzayev isə üçüncü nəticə göstəriblər.

“M” kateqoriyalı yarışda Ələkbər Məmmədov “AFP S Chantal 261” və “Francesco” ləqəbli atlarla ilk iki pillədə qərarlaşıb. “Gilan” atçılıq idman klubunun idmançısı Rahib İsmayılov “Carthanio” ləqəbli atla yarışı üçüncü pillədə başa vurub. Bu kateqoriyada idmançılar hündürlüyü 120-125 santimetr olan maneələrə qarşı mübarizə aparıblar.

Maneələrin hündürlüyü 135-140 santimetr olan “S” kateqoriyası üzrə yarışda “Cera 59” ləqəbli atla Kənan Novruzov bütün rəqiblərini qabaqlayıb. “Concorde” ləqəbli atla “Sərhədçi” atçılıq idman klubunun üzvü Seyid Musayev ikinci, “Carthanio” ləqəbli atla “Gilan”ın idmançısı Rahib İsmayılov üçüncü yeri tutublar.

Bu yarışın ümumi mükafat fondu 5 min manat təşkil edib.



## Millimiz növbəti mərhələyə vəsiqə qazana bilmədi

Kişi həndbolçulardan ibarət Azərbaycan millisi Avropa çempionatının ilkin təsnifat mərhələsində iştirakını başa vurub.

Yığmamız Maltanın Kospikua şəhərinin “Kottonera Sports Kompleks” Arenasında Kipr millisinə 17:25, Gürcüstana isə 25:30 hesabı ilə məğlub olub. Sonuncu oyunda Malta ilə qarşılaşan həndbolçularımız 27:24 hesabı ilə qalib gəliblər.

Hesabında 2 xal olan Azərbaycan millisi növbəti mərhələyə vəsiqə qazana bilməyib.

Qeyd edək ki, 2022-ci ildə Macarıstan və Slovakiyanın birgə ev sahibliyi edəcəyi Avropa çempionatının növbəti təsnifat mərhələsinə Kipr millisi qrup lideri kimi adlayıb.

## Atletika yarışının qalibləri mükafatlandırılıblar

Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi (BŞGİBİ) tərəfindən Respublika Olimpiya Mərkəzində 2002-2003-cü il təvəllüdlü oğlan və qızlar arasında atletika üzrə Bakı birinciliyi keçirilib.

Birincilikdə 8 klubu təmsil edən 113 idmançı mübarizə aparıb.

Yekun nəticələrə əsasən, qızlar arasında 60 metr məsafəyə qaçış yarışlarında Ləman Hüseynova qızıl medal qazanıb. 200 və 400 metr məsafəyə qaçışda Lamiyə Vəliyeva, uzunluğa və üçtəkanla tullanmada Sabrina Zralova bütün rəqiblərini qabaqlayıblar. 800 metr məsafəyə qaçışda və nüvəitələmə yarışlarında Günel Manafova fərqlənib.

Oğlanların mübarizəsində uzunluğa və üçtəkanla tullanmada Çingiz İsrafilov, nüvəitələmə yarışlarında Yusif Nəzərov fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. 60 metr məsafəyə qaçışda Əli Abdiyev, 200 və 400 metr məsafəyə mübarizədə Teymur Salahzadə, 800 metr məsafəyə yarışda Emil Hacıyev, 1500 metr məsafəyə qaçışda isə Vahid Kərimov birinci olublar.

İlk üç yeri tutan idmançılara Baş İdarə tərəfindən müvafiq dərəcəli diplom və medallar təqdim olunub.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA
KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN
İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

*"Uşaq və gənclərin fiziki və mənəvi inkişafı"*

# Sağlam düşüncə tərzi gələcək uğurların təməlidir

***Yeniyetmə və gənclərin fiziki və mənəvi inkişafında idmanın əhəmiyyəti olduqca böyükdür. Həmin idman növləri sırasında qədim tarixə malik olan şahmatı xüsusilə qeyd etmək lazımdır. Belə ki, əgər təkmübarizlik idman növləri bədən quruluşunu formaya salırsa, fiziki inkişafa kömək olursa, şahmat da zehnin inkişafına, diqqətin, yaddaşın möhkəmlənməsinə yardımçı olur. Təsadüfi deyildir ki, məşhur fransız filosofu və yazıçısı, riyaziyyatçı Paskal Blez şahmatı insan zehninin gimnastikası adlandırırdı.***

Şahmat Azərbaycanda da qədim tarixə malikdir. Belə ki, hələ XI-XVI əsrlərdə Xaqani Şirvani, Nizami Gəncəvi, Məhsəti Gəncəvi, İmadəddin Nəsimi, Məhəmməd Füzuli kimi dahilər öz şeirlərində şahmatı tərənnüm edib, oyun haqqında mənalı və çox dərin fikirlər söyləyiblər. Tarixdən məlum olduğu kimi, fransız yazıçısı Aleksandr Düma Azərbaycanda olarkən Xurşidbanu Natəvan ilə şahmat oynamış və onun qədim oyunun sirlərini dərindən bildiyini qeyd etmişdir. Görkəmli dramaturq Mirzə Fətəli Axundov oğluna yazdığı məktubda ona şahmatın sirlərinə yiyələnməyi tövsiyə etmişdir. Bu faktlar bir daha onu deməyə əsas verir ki, bu idman növünün uşaq və gənclərin fiziki və mənəvi inkişafında böyük rolu var.

## "Şahmatda qalib gələnlər həyatda nadir hallarda uduzurlar"

Sevindirici haldır ki, bu gün əksər idman növləri kimi şahmat da ölkəmizdə inkişaf etməkdədir. Bu istiqamətdə dövlət tərəfindən həyata keçirilən tədbirlərdə böyük əhəmiyyətə malikdir. Belə ki, 1998-ci ildə ümummilli lider Heydər Əliyev tərəfindən imzalanmış "Azərbaycanın uşaq şahmatçılarına dövlət qayğısının artırılması haqqında" Sərəncam hazırda dünyanın ən güclü şahmatçıları ilə bir sırada mübarizə aparmağa və qələbə qazanmağa qadir idmançılar nəslinin yaranmasına zəmin yaradıb.

"2009-2014-cü illərdə Azərbaycanda şahmatın inkişaf etdirilməsi Dövlət Proqramı"nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı da ölkədə şahmatın inkişafına xüsusi təkan verdi.

Bundan başqa, şahmatın Azərbaycanda bu dərəcədə kütləviləşməsində, şübhəsiz ki, paytaxt və bölgələrdə yerləşən şahmat-dama məktəblərinin danılmaz rolu var. Belə məktəblərdən biri də Yasamal rayonundakı Azərbaycan Həmkarlar İttifaqlarının Respublika Şahmat və Dama İctimai Birliyidir. Bir neçə gün əvvəl direktor Nazim Nurullayevlə məktəbin fəaliyyəti barədə həmsöhbət olduq. O, şahmat və damanın uşaqların, gənclərin təfəkkürünün inkişafında oynadığı mühüm roldan danışdı. "Həm şahmat, həm də dama uşaq və yeniyetmələr üçün çox vacibdir. Mən onları spesifik idman növü də adlandıra bilərəm. Doğrudur, bütün idman növlərində, əgər belə demək mümkünsə, baş işləməlidir. Yəni cüdoçu da, boksçu da, futbolçu da öz çıxışı zamanı düşünə-düşünə hərəkət etməlidir. Lakin şahmat və dama məhz zehni əməyin üzərində qurulub. Müşahidələr göstərir ki, şahmat və damada fərqlənənlər gündəlik həyatda da daha qətiyyətli olur, inamlı addımlar atırlar. Həm də həmin insanlar uzaqgörən olur, mümkün qədər bir neçə addımı əvvəldən planlaşdırmağa çalışırlar. Ümumiyyətlə, şahmatda qalib gələnlər həyatda nadir hallarda uduzurlar. Bu idman növlərinin uşaq və yeniyetmələr üçün xüsusilə vacib olduğunu da təsadüfi olaraq demədim. Belə ki, bir insan üçün təxminən 25 yaşa kimi inkişaf dövrü hesab olunur. Bu mərhələdə insanların həm fiziki, həm də zehni cəhətdən özlərini inkişaf etdirmələri daha məqsədəuyğundur. Həmin yaşdan sonra isə şahmatla yalnız həvəskar şəkildə məşğul olmaq olar. Ümumiyyətlə, şahmata, damaya nə qədər tez başlasan, bu, bir o qədər yaxşıdır. Mütəfəkkirlər də öz əsərlərində həmişə şahmatın əhəmiyyətindən danışaraq, bu oyunun xüsusilə uşaqların zəkasının, intellektual səviyyəsinin inkişafı üçün əvəzsiz olduğunu deyiblər. Məsələn orta əsrlərin ən dahi şəxslərindən Nəsirəddin Tusi yazırdı: "Uşaqların nəzərində qızıl və gümüşü aşağı salmaq lazımdır. Çünki bunların verdiyi ziyan əfi ilanın zəhərindən daha güclüdür. Uşaqlara şahmatı öyrətmək lazımdır". Bəzən uşaq beynini ağ vərəqə bənzədirlər. Belə ki, kiçik yaşlarında uşağa nə desən, onu tez qavrayacaq, yadında saxlayacaq. Tədricən isə bu məsələ bir az çətinləşir".



## "Uğura gedən yolda nəticə qazanmaq üçün zəhmət çəkmək lazımdır"

Şahmat və damada qazanılan qələbələri uşaq və yeniyetmələrin gələcək uğurlarının başlanğıcı hesab edən Nazim Nurullayevin fikrincə, bu idman növləri, həm də insana ədalətli mübarizəni aşılayır. "Əslində şahmatın, damanın faydaları olduqca çoxdur. Onlardan biri də insanı prinsipial ruhda tərbiyə etmək, ədalətli mübarizənin nə olduğunu başa salmaqdır. Ən elementar bir misal: hər iki idman növündə rəqiblərə eyni fiqurlar verilir və onlar növbə ilə oynayırlar. Yəni bir idmançı daha çox fiqura sahib ola və ya ard-arda iki gediş edə bilməz. Bu, o deməkdir ki, şanslar bərabərdir. Necə deyərlər, hər şey şəffafdır və kim daha iti düşünə bilirsə, o da qalib gəlir. Şahmatda belə bir qayda var ki, əgər oyunçulardan birinin piyadası sonuncu xanaya çatıbsa, bu zaman o, piyada əvəzində itirdiyi fiqurlardan birini, o cümlədən də vəziri oyuna daxil edə bilər. Düşünürəm ki, bu özü də xüsusi məna daşıyır. Yəni uşaq başa düşür ki, uğura gedən yolda nəticə qazanmaq üçün əvvəlcə çalışmaq, zəhmət çəkmək lazımdır. Çəkilən zəhmət, atılan düzgün və dəqiq addımlar isə mütləq bəhrəsini verir.

## Qələbə naminə saatlarla düşünməyin faydası

Təcrübələr göstərir ki, şahmatla məşğul olanlar dəqiq elmlərdə, o cümlədən cəbr, həndəsə, fizika kimi fənlərdə həmyaşıdlarından seçilirlər. Onlar konkret fənn müəllimlərinin etimadını doğruldur, bir qayda olaraq həmişə dərslərdə yüksək qiymət almağı bacarırlar. Müsahibimiz bunun heç də təsadüfi olmadığını bildirdi: "Bəli, doğrudur ki, şahmatçılar dəqiq elmlərdə digərlərinə nisbətən daha uğurlu olurlar. Düşünürəm ki, bu, bir yox, bir neçə amillə bağlıdır. Şahmatçıların analiz qabiliyyəti güclü olur. Hətta onlar necə deyərlər "baş sındırmağı", qələbə naminə saatlarla düşünməyi, yüz dəfə ölçüb, bir dəfə biçməyi çox xoşlayırlar. Bu yerdə qeyd etmək istərdim ki, bəzən şahmatı təhlil sənəti də adlandırırlar. Riyaziyyat da insandan məhz bunu tələb edir. Gərək diqqətli olasan, misalın cavabını tapana kimi çalışasan. İkinci bir tərəfdən, şahmatçılar səbr etməyi də bacarırlar. Daha doğrusu, şahmat insanda bu xüsusiyyəti inkişaf etdirir. Ona görə də yaxşı şahmat oynayanlar bir misal ətrafında saatlarla düşünə bilirlər. Üçüncü cəhət isə ondan ibarətdir ki, şahmatçılar bir neçə gedişdən sonranı da düşünərək ümumi mənzərəni beyinlərində təsəvvür edirlər. Bu amil riyaziyyatda, xüsusilə həndəsədə şagirdə çox lazım olur. Lakin dediklərimdən belə nəticəyə gəlmək olmaz ki, bu idman növünü sevənlər humanitar fənlərə qarşı laqeyd olurlar. Xeyr, onlar sadəcə dəqiq elmlərdə müsbət mənada həmyaşıdlarından seçilirlər", - deyə Nazim müəllim fikirlərini bölüşdü.

Əksər hallarda valideynlər öz övladlarını bu və ya digər idman növünə meyilləndirirlər. Sonradan isə uşaq ya həmin idman növünü sevərək məşğələlərə davam edir, ya da ondan uzaqlaşır. Maraqlıdır ki, valideynlər hansı məqsədlə övladlarını şahmat məktəblərinə aparırlar? Bu barədə danışan Nazim Nurullayev qeyd etdi ki, ilkin məqsədlər müxtəlif olsa da, bir çox hallarda sonradan bu idman növünə qarşı yaranan sevgi ilə bağlı olaraq uşaqlar şahmatın, damanın sirlərinə daha dərindən yiyələnməyə, çempion olmağa can atırlar. "Şahmatın səciyyəvi xüsusiyyətləri var, o, yaddaşı, diqqəti möhkəmləndirir, insanı səbr etməyə öyrədir. Bəzi hallarda valideynlərin öz uşaqlarını şahmat bölmələrinə yazdırmaları bu və ya digər çatızmazlığı bərpa etmək məqsədilə olur. Hətta bəzən tibb mütəxəssisləri, psixoloqlar da valideynlərə məsləhət görürlər ki, uşaq şahmatla məşğul olsun. Etiraf etmək lazımdır ki, bu günkü uşaqların bir çoxu, necə deyərlər, bir yerdə dayana, fikirlərini bir nöqtəyə cəmləşdirə bilmirlər. Bəzən valideynlər bu məsələyə biganə yanaşırlar. Amma bu, əslində kifayət qədər ciddi problemdir. Çünki həmin uşaqlar bu gün dərslərində uğur qazana bilmədikləri kimi, gələcəkdə də işlərinin öhdəsindən layiqincə gələ bilməyəcəklər. Dediyim kimi, bu neqativ halın qarşısını almaq məqsədilə mütəxəssislər məsləhət görürlər ki, həmin uşaqlar şahmatla məşğul olsunlar. Bu məqsədlə övladlarını şahmat bölmələrinə, o cümlədən bizim məktəbə yazdıranlar da az deyil. Müşahidələr də təsdiq edir ki, şahmat diqqətin möhkəmlənməsinə kömək edir. Uşaqlar məşğələlər zamanı şahmat taxtası arxasında saatlarla oturmağa vərdiş edirlər. Beləliklə də, onlar tədricən gündəlik həyatlarında da səbr etməyi bacarırlar. Səbr edənlər isə həmişə qələbə qazanırlar. Hətta belə bir ifadə var ki, bütün yaxşı şeylər səbrdən sonra gəlir. Bəzən valideynlər sadəcə övladlarının asudə vaxtlarını səmərəli keçirmək üçün şahmat məktəblərinə üz tuturlar. Bu da təqdirediləsi haldır. Üçüncü qisim valideynlər isə elə ilk dərsdən etibarən deyirlər ki, mən övladımın çempion olmasını istəyirəm. Maraqlı cəhət ondan ibarətdir ki, adətən həmin uşaqların valideynlərindən heç olmasa biri şahmata həvəsli olur, ona görə övladlarının da şahmatla məşğul olmalarını istəyirlər. Ancaq bəzi hallarda sonradan, yəni belə demək mümkünsə, idmançı şahmatla dostlaşandan sonra bu idman növündə böyük uğurlar qazanmağa çalışır. Bu, həm də onunla bağlıdır ki, şahmatın sirləri tükənmir, gedişlərin, kombinasiyaların sayı milyonlarladır. Fransalı yazıçı Pyer Mak Orlan deyirdi ki, şahmatda bütün okeanlardan daha çox macəra var. Məhz həmin sirləri "kəşf etmək" arzusu idmançını şahmatı sevdirən əsas amillərdəndir", - deyə Nazim müəllim bildirdi.





## ""Şah"ı tələbəsinə qurban verən müəlllim"

Söhbət zamanı məlum oldu ki, Yasamal rayonundakı Azərbaycan Həmkarlar İttifaqlarının Respublika Şahmat və Dama İctimai Birliyi daim özünün uğurları ilə seçilir. Buna səbəb isə ilk növbədə təcrübəli müəllimlər, həvəskar şagirdlərdir. Müəllimlər şagirdlərdə bu idman növünə daha çox maraq və həvəs yaratmağa çalışır, yeniyetmə zəka sahibləri isə qazandıqları nəticələrlə çəkilən zəhmətləri, onlara göstərilən etimadı doğruldurlar. Bu barədə daha ətraflı məlumat verən həmsöhbətimiz bildirdi ki, məktəbin şahmat bölməsində hazırda 20-ə, dama idman növündə isə 10-a yaxın müəllim çalışır. "Müəllimlərimiz kifayət qədər təcrübəli və bacarıqlıdırlar. Onlar 400-ə qədər şagirdə şahmatın sirlərini öyrədirlər. Həmin müəllimlərdən 3-ü Əməkdar məşqçi, 3-ü isə beynəlxalq ustadır. İki idman növündə də dərslərimiz həm müasir texnologiya ilə, həm də nisbətən ənənəvi üsul hesab edilən kitablarla keçilir ki, bu da uşaqların dərsləri daha yaxşı mənimsəməsinə kömək edir. Ümumiyyətlə, həm şagirdlərimiz, həm də müəllimlərimiz üçün yaratdığımız şərait yüksək səviyyədədir. Valideynlər özləri də razılıqlarını bildirirlər. Biz də başa düşürük ki, dərslərin keyfiyyətli keçirilməsi, qavranılması üçün, əvvəlcə, şəraitin yaradılması labüddür. Qeyd edim ki, bəzən mən özüm də məşğələlərdə, xüsusilə şahmat dərslərində iştirak edir, uşaqlarla şahmat oynayıram. Doğrudur, mənim də bu idman növünə böyük həvəsim var, yaxşı oynayıram. Lakin etiraf etməliyəm ki, bəzi tələbələrimizə məğlub oluram, onlarla bacarmıram. Bu, inkişafdan xəbər verir və şübhəsiz ki, belə hallar məni sevindirir. Uşaqlarla apardığımız söhbətlərdən, onların münasibətindən belə nəticəyə gəlmişəm ki, mənim onlarla şahmat oynamağım onların hər biri üçün əlavə stimuldur. Bir direktor kimi çalışıram ki, yüksək nəticələr üçün məndən asılı olan hər şeyi edim", - deyə məktəbin rəhbəri qeyd etdi.

## Məktəbin zəka sahibləri dünyaya səs salırlar

Qazanılan uğurlardan danışan müsahibimiz bildirdi ki, son illərdə əldə olunan nəticələr xüsusilə parlaqdır. Şübhəsiz ki, bu nailiyyətlərin hər birinin arxasında böyük zəhmət və səbr dayanır. "Nəticələrimiz olduqca sevindiricidir. Həm respublikadaxili, həm də beynəlxalq aləmdə əldə etdiyimiz nəticələr kifayət qədərdir. Məsələn bu il avqustun 19-dan 30-dək Latviyanın paytaxtı Riqada keçirilən yeniyetmə şahmatçılar arasında Avropa çempionatında ölkəmizi təmsil edən şahmatçılardan ikisi medal qazanıb ki, onlardan biri də bu məktəbin yetirməsi 7 yaşlı Cahandar Azadəliyev idi. Cahandar 9 mümkün xaldan 8 xal toplayaraq bu böyük yarışdan Vətənə çempion kimi qayıtmağı bacarıb. İspaniyanın Santyaqo-de-Kompestello şəhərində keçirilən dünya çempionatında isə komanda üzvlərindən yalnız Cahandar medalla vətənə geri dönüb. O, bu yarışda 9 xalla ikinci olub. 2016-cı ildə 14 yaşlı Gövhər Beydullayeva Avropa birinciliyinin qalibi olub. 2017-ci ildə sentyabrın 3-dən 14-dək Rumıniyanın Mamaya şəhərində təşkil olunan 10 yaşınadək şahmatçıların Avropa birinciliyində Read Səmədov gümüş medala layiq görülüb. Gövhər Beydullayeva isə 2016-c ildə qazandığı uğuru bir daha təkrarlayaraq, yarışın qalibi olub. Bu il yanvarın 26-dan fevralın 4-dək davam edən Moskva-Open turnirində Cahandar Azadəliyev 210 iştirakçı arasında ən yaxşı nəticəyə sevinib. Maraqlı cəhət ondan ibarətdir ki, Cahandarın 7-i yaş olsa da, o, bu yarışda 9 yaşlılar arasında mübarizə aparıb. Bütün məşqçilər, o cümlədən də Cahandarın şəxsi məşqçisi Valeri Şlyayev belə hesab edir ki, bu yeniyetmə şahmatçı gələcəyin sayılıb-seçilən zəka sahiblərindən biri ola bilər. Hətta artıq Cahandara fərdi təqaüd də ayrılıb ki, bu da, şübhəsiz, ona əlavə stimul verir. Məktəbimizin dama idman növündə də əldə etdiyi nəticələr qənaətbəxş səviyyədədir. Belə ki, bu idman növü ilə məşğul olanlar müntəzəm olaraq müxtəlif beynəlxalq yarşılarda mükafatalayiq yerlər tuturlar. Onlardan Aslan Aslanlı artıq beynəlxalq usta adına layiq görülüb. Onu da deyim ki, biz hər ilin sonunda perspektivli idmançıları dəyərli hədiyyələrlə mükafatlandırırıq. Məsələn onlara telefon, planşet, kompüter, şahmat taxtası və bu kimi hədiyyələr veririk. Bu zaman idmançı daha da həvəslənir. O, hiss edir ki, müəllimlər ona inanırlar, etimad göstərirlər və həmin inamı doğrultmağa çalışır".

Göründüyü kimi, Yasamal rayonundakı Azərbaycan Həmkarlar İttifaqlarının Respublika Şahmat və Dama İctimai Birliyinin nəticələri olduqca yaxşıdır. Bu, çox sevindirici haldır. Deməli, həm ölkəmizdə orta əsrlərdən bəri davam edən şahmat ənənəsi gələcəkdə də inkişaf edəcək, həm Şəhriyar Məmmədyarov, Teymur Rəcəbov, Vüqar Həşimov kimi qrossmeysterlərin layiqli davamçıları yetişəcək, həm də gənc nəsil mənəvi cəhətdən sağlam böyüyəcək, iti zəkaları ilə seçiləcək. Unutmaq olmaz ki, hər ötən gün elm və texnika tərəqqi edir. Yeni texnikadan baş çıxarmaq, günün nəbzini tutmaq üçün diqqətli, hafizəli olmaq lazımdır. Bunun üçün isə şahmat və dama ilə məşğul olmaq ən optimal variantdır

***Kənan Novruzov***

*Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə çap edilir.*

## *Komandamız Xorvatiya Qran-Prisindən 10 medalla qayıdır*

Yeniyetmə və gənc karateçilərdən ibarət yığma komandalarımız Xorvatiyada 28-ci Qran-Pri turnirində uğurla çıxış edib.

İdmançılarımız Samobor şəhərində keçirilən və 23 ölkədən 1621 karateçinin iştirak etdiyi ənənəvi yarışda 10 medal qazanıblar. Medallardan dördü qızıl, biri gümüş, beşi isə bürüncdür.

Turnirdə (kata) Roman Heydərov millimizin aktivinə iki qızıl medal yazdırıb. O, 18-20 yaşlı gənclər və böyüklər arasında yarışların qalibi olub. Kata turnirində digər təmsilçimiz Ceyhun İsmayılov isə 16-17 yaşlı gənclər arasında birinci pilləyə qalxıb.

Kumite yarışlarında Hüseyn Məmmədli (14-15 yaşlı yeniyetmələr, 57 kq) qızıl, Murad Hacızadə (18-20 yaşlı gənclər, +84 kq) gümüş, Fidan Dadaşova (14-15 yaşlı yeniyetmələr, 47 kq), Mədinə Sadıxova (48 kq), Tural Yaqubov (hər ikisi 16-18 yaşlı gənclər, 68 kq), Müseyib Məmmədov (60 kq) və Emil Güləhmədov (hər ikisi 18-20 yaşlı gənclər, 84 kq) bürünc medallar qazanıblar.

Karateçilərimizi fevralın 8-10-da Danimarkanın Aalborq şəhərində Avropa çempionatı gözləyir. Bu məsul yarışa hazırlığın bir hissəsi kimi Xorvatiya Qran-Prisində iştirak edəcək aşağı yaşlı seçmə komandalar iki gün sonra təlim-məşqlərini davam etdirəcəklər.

* * *

Karateçilərimiz 2019-cu il mövsümünə hazırlıqlara başlayıb. Bu məqsədlə Qəbələdə böyüklərdən ibarət milli komandanın təlim-məşqləri keçirilir.



Baş məşqçi Bahəddin Kandaz, böyük məşqçilər Şahin Xudaverdiyev, Qurban Tağıyev (kumite) və Vahid Ayvazovun (kata üzrə baş məşqçi) rəhbərliyi ilə hazırlıqlarda milli komandanın əsas və əvəzedici heyəti iştirak edir. Mövsümün ilk təlim-məşqləri yanvarın 21-də başa çatacaq.

Karateçilərimiz ayın 23-də Fransaya, Karate1 Premyer Liqasına yola düşəcəklər. İlboyu milli komandamızı Paris, Dubay, Rabat, Şanxay, Tokio, Moskva və Madriddə Premyer Liqa yarışları, Zalsburq, İstanbul, Monreal və Santyaqoda A seriyası turnirləri, həmçinin martın sonunda İspaniyanın Quadalaxara şəhərində 54-cü Avropa çempionatı gözləyir.

Karate1 seriyasından olan Premyer Liqa və A seriyası turnirləri daxil olmaqla, bu rəsmi yarışlar idmançılara dünya reytinqindən əlavə Tokio Yay Olimpiya Oyunlarına lisenziya verən reytinq xalları qazandırır.

* * *

Fevralın 2-də və 3-də Azərbaycan Milli Karate Federasiyasının (AMKF) təlim-məşq bazasında şotokan karate üzrə növbəti seminar, kyu və dan imtahanı keçiriləcək.

Seminar və imtahana AMKF-in prezidenti Yaşar Bəşirov, kata üzrə milli komandanın baş məşqçisi Vahid Ayvazov rəhbərlik edəcəklər. Seminarın birinci günündə kihon, kata və kumite texnikası üzrə çalışmalar yerinə yetiriləcək. Ertəsi gün isə imtahan keçiriləcək.

Seminara qeydiyyat yanvarın 25-də başlayacaq.

Cari ildə nəzərdə tutulmuş digər seminar və imtahanlar mayın 11-12-də, oktyabrın 12-13-də və dekabrın 21-22-də təşkil ediləcək.



## Alpaqut Turan döyüş sənəti Birləşmiş Ərəb Əmirliklərində təbliğ olunub

Son illər Azərbaycanda sürətlə inkişaf edən alpaqut Turan döyüş sənətinin beynəlxalq aləmdə təbliği işində ölkəmiz yüksək fəallığı ilə seçilir. Bu idman növünün beynəlxalq miqyasda təbliği çərçivəsində növbəti tədbirlər Birləşmiş Ərəb Əmirliklərində (BƏƏ) təşkil olunub.

Azərbaycan Alpaqut Federasiyasının birinci vitse-prezidenti Nuranə Şixəliyevanın başçılıq etdiyi nümayəndə heyəti ölkəmizin BƏƏ-dəki səfirliyinin təşkilatçılığı ilə bu ölkədə səfərdə olub.

Səfər çərçivəsində nümayəndə heyəti BƏƏ-də Azərbaycan diasporunun üzvləri, azərbaycanlı tələbələrlə görüşlər keçirib. Görüşlərdə və tədbirlərdə Azərbaycan dövlətinin idmana göstərdiyi yüksək diqqət və qayğı, ölkəmizdə idman sahəsində qazanılan mühüm nailiyyətlər, eləcə də alpaqut Turan döyüş sənətinin inkişafı, ötən ilin sonunda Bakıda idmanın bu



növü üzrə birinci dünya çempionatının yüksək səviyyədə təşkili barədə ətraflı məlumat verilib.

Alpaqut Turan döyüş sənətinin müəllifi, beynəlxalq dərəcəli idman ustası Vasif Namazov türk xalqlarının qədim döyüş sənətlərindən götürülmüş və müasir döyüş növləri ilə sintezləşdirilərək yaradılan alpaqut idmanı barədə iştirakçıları məlumatlandırıb. Bildirib ki, alpaqut idman növünün beynəlxalq arenada inkişafı məqsədilə 2014-cü ildə Azərbaycanda Dünya Alpaqut Federasiyası yaradılıb. Federasiyanın Azərbaycanla yanaşı, Almaniya, Böyük Britaniya, Qırğızıstan, Çexiya, Türkiyə, Gürcüstan, İran, Pakistan, Hindistan, Livan, Macarıstan, Ukrayna, Əlcəzair, Qazaxıstan, Qırğızıstan, Nepal, Özbəkistan və Rusiya üzrə nümayəndəlikləri fəaliyyət göstərir. Bu qurum 2014-cü ildən başlayaraq bir neçə beynəlxalq tədbir və yarışlar təşkil edib.

Ölkəmizdə idman sahəsində əldə edilən nailiyyətlər, eləcə də alpaqut Turan döyüş sənəti ilə bağlı ətraflı məlumat böyük maraqla qarşılanıb.

* * *

Alpaqut Turan döyüş sənəti üzrə Azərbaycan Alpaqut Federasiyasının hakim və məşqçiləri üçün Bakıda respublika seminarı keçirilib.

Daxili İşlər Nazirliyinin İdman Cəmiyyətində təşkil edilən seminara 40-dan artıq bölgədən gəlmiş federasiyanın filial və klub rəhbərləri, məşqçilər və hakimlər kollegiyasının üzvləri qatılıblar. Seminarı Dünya Alpaqut Federasiyası idarə heyətinin sədri, alpaqut Turan döyüş sənətinin müəllifi Vasif Namazov aparıb.

Seminar çərçivəsində Vasif Namazov federasiyanın 2019-cu il üçün təqvim planına daxil edilən yarışlar barədə də məlumat verib. Qeyd edib ki, bu il Bakıda alpaqut üzrə ikinci dünya çempionatı keçiriləcək.

Bildirilib ki, bundan başqa 10 yarışın təşkili nəzərdə tutulub. Onların beşinin bölgələrdə keçirilməsi planlaşdırılır. Vasif Namazov bu yarışlarla bağlı məşqçilərə, hakimlərə tapşırıq və tövsiyələrini verib.

Sonda seminarda iştirak edən filial və klub rəhbərlərinə yeni lisenziyalar, hakimlərə isə sertifikatlar təqdim edilib.

Tədbirdə, həmçinin Azərbaycan Alpaqut Federasiyasının təşkilati və humanitar məsələlər üzrə yeni təyin olunmuş vitse-prezidenti Hüseyn Babayev iştirakçılara təqdim edilib.

## Qran-Pridə 43 ölkənin təmsilçiləri mübarizə aparacaqlar

Mayın 13-14-də Bakıda Beynəlxalq Gözdən Əlillər İdman Federasiyasının (IBSA) paracüdo üzrə Qran-Pri yarışı keçiriləcək.

Azərbaycan paytaxtında ilk dəfə keçiriləcək bu mötəbər yarışda 43 ölkədən 250 idmançı iştirak edəcək. Qran-Pridə qalib gələn idmançılar 2020-ci ildə Tokioda keçiriləcək XVI Yay Paralimpiya Oyunlarına lisenziya xarakterli reytinq xalları qazanacaqlar.

Turnirdə kişilər 60, 66, 73, 81, 90, 100 və 100 kiloqramdan yuxarı, qadınlar isə 48, 52, 57, 63, 70 və 70 kiloqramdan yuxarı çəki dərəcələrində mübarizə aparacaqlar. Qaliblərə təqdim olunacaq medalların nümunələri artıq təsdiqlənib.

Qran-Pridə iştirak edəcək paracüdo üzrə milli komandamızın tərkibi fevralda keçiriləcək respublika çempionatının nəticələrindən sonra müəyyənləşəcək.

## Yeniyetmə samboçular Bakı birinciliyində qüvvələrini sınayıblar

Abşeron Olimpiya İdman Kompleksində keçirilən 2001-2002-ci illər təvəllüdlü samboçular arasında Bakı birinciliyinin qalibləri müəyyənləşib. Yeniyetmə samboçulardan Kənan Zeynallı (48 kq), Sahib Babayev (52 kq), Elvin Əliyev (58 kq), Kənan Rüstəmli (60 kq), İlkin Şəkiyev (65 kq), Təbriz Səyyadov (70 kq), Ağalı Məmmədov (75 kq), Cahangir Məmmədov (81 kq), Kənan İsgəndərli (87 kq), Orxan Məcidli (+87 kq) yüksək nəticə göstərərək fəxri kürsünün ilk pilləsində qərarlaşıblar.

Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin təşkilatçılığı ilə keçirilən birincilikdə 10 çəki dərəcəsində 137 idmançı qüvvəsini sınayıb.

Turnirdə fərqlənənlər Baş İdarə tərəfindən mükafatlandırılıblar.

## Bakı birinciliyinin qalibləri müəyyənləşib

Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi (BŞGİBİ) tərəfindən "Lokomotiv" İdman Cəmiyyətində 1999-2005-ci illər təvəllüdlü oğlan və qızlar arasında örtülü salonda kamandan oxatma üzrə Bakı birinciliyi keçirilib.

Birincilikdə 53 idmançı mübarizə aparıb.



1999-2001-ci illər təvəllüdlü oğlanlar arasında Fuad Allahverdiyev, 2002-2004-cü illər təvəllüdlü idmançıların yarışında Muhamməddəli Əliyev, 2005-ci il təvəllüdlülərin mübarizəsində isə Teymur Kərimov qızıl medal qazanıblar.

1999-2001-ci illər təvəllüdlü qızların yarışında Ozay Qasımova, 2002-2004-cü illər təvəllüdlülər arasında Hökümə Əhmədova, 2005-ci il təvəllüdlülərin mübarizəsində isə Ayna Həsənova fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar.

Qalib idmançılar Baş İdarə tərəfindən müvafiq dərəcəli diplom və xatirə hədiyyələri ilə mükafatlandırılıblar.

## *Şəhidlərin xatirəsinə həsr olunmuş kikboksinq turniri*




Azərbaycan Kikboksinq Federasiyası, Suraxanı Rayon Gənclər və İdman İdarəsi və "Vətən" Kikboksinq Klubunun təşkilatçılığı ilə Şağan Olimpiya İdman Kompleksində 20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunmuş "Vətən" kikboksinq klubunun açıq birinciliyi keçirilib.

Klubun rəhbərliyi və üzvləri əvvəlcə Şəhidlər xiyabanını ziyarət ediblər.

Yarışın açılış mərasimində 20 Yanvar şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad edilib və Dövlət himni səsləndirilib.

Açılış mərasimində çıxış edən "Sərhədçi" İdman Olimpiya Kompleksinin rəisi, polkovnik Elşən Mirzəyev, Suraxanı Rayon Gənclər və İdman İdarəsinin rəisi Amil Bağırov, Xəzər Rayon Gənclər və İdman İdarəsinin rəisi Vüqar Əliyev, "Vətən" kikboksinq klubunun idarə heyətinin sədri Mehdi Hüseynov, Dövlət Sərhəd Xidmətinin zabiti Cabir İsgəndərov, Azərbaycan Kempo Federasiyasının prezidenti Rauf İbrahimov, kikboksinq üzrə dəfələrlə dünya və Avropa çempionu Eduard Məmmədov Azərbaycanda idmanın, o cümlədən kikboksinqin inkişafından danışıblar. Qeyd ediblər ki, ölkəmizdə bədən tərbiyəsi və idmana dövlət tərəfindən göstərilən diqqət və qayğı nəticəsində yüksək nailiyyətlər əldə edilib.

Yarışlarda Bakı və Sumqayıtın 12 klubundan 150-dən çox idmançı qüvvəsini sınayıb. Turnirdə yüksək nəticə göstərən idmançılara fəxri fərman, diplom və mükafatlar təqdim olunub.

Yarışın keçirilməsində məqsəd kadetlər, yeniyetmələr və gənclər arasında kikboksinq idman növünü inkişaf etdirmək, onun kütləviliyinə nail olmaq, gəncləri vətənpərvərlik ruhunda tərbiyə etmək eyni zamanda idman klubunun yığma komandasını komplektləşdirməkdir.

Yarış Beynəlxalq WAKO qaydalarına uyğun lou-kik və kik-layt versiyaları üzrə keçirilib.

## Sərrastların Bakı çempionatı yekunlaşdı

Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin təşkilatçılığı ilə start götürən güllə atıcılığı üzrə Bakı çempionatının qalibləri müəyyənləşib. 50-dək atıcının iştirak etdiyi turnirdə 10 metr məsafəyə tapançadan atəşaçma yarışında kişilər arasında Ruslan Lunyov (576 xal) və Nigar Nəsirova (568 xal) birinci yeri tutublar.

Həmin məsafəyə tüfənglə atəşaçma yarışında kişilər arasında Ramiz Xəlilov (598,9 xal), qadınların mübarizəsində isə Jalə Bayramova (619,3 xal) ilk pillədə qərarlaşıblar.

Yarışın qalib və mükafatçıları Baş İdarə tərəfindən diplom, fəxri fərman və hədiyyələrlə mükafatlandırılıblar.



# Zəka sahibləri Astarada bir araya gələcəklər

Yanvarın 25-də Astara Olimpiya İdman Kompleksində 8, 10, 12, 14 və 16 yaşınadək şahmatçılar arasında Azərbaycan birinciliyinin seçmə mərhələsi start götürəcək.

Bu barədə Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin şahmat idman növü üzrə koordinator-kuratoru Salman Əbdülov məlumat verib.

Oğlanların və qızların mübarizə aparacaqları yarışlar fevralın 2-dək davam edəcək.

* * *

Azərbaycan Şahmat Federasiyası 2019-cu il üçün tədbirlər planını açıqlayıb. İl ərzində böyüklər və müxtəlif yaş qrupları üzrə ölkə çempionatları, beynəlxalq şahmat festivalları və digər respublika əhəmiyyətli yarışlar təşkil olunacaq. Ənənəvi "Naxçıvan Open" və "Baku Open" beynəlxalq şahmat festivallarının bu ilin may və sentyabr aylarında keçirilməsi planlaşdırılıb.

Mayın 28-də rapid, iyulun 20-də isə blits üzrə ölkə çempionatlarının təşkil olunması nəzərdə tutulub. Eyni zamanda, 16 yaşınadək uşaqlar arasında Respublika Şahmat Olimpiadasının keçiriləcəyi yer və tarix məlum olub. Belə ki, builki Olimpiada iyulun 12-dən 23-dək Qubada təşkil ediləcək.

# "Qarabağ"a pul vəsaiti ayrılıb

UEFA-nın 20.12.2018-ci il tarixli məktubuna əsasən, UEFA Avropa Liqasının 2018-19-cu il mövsümünün qrup mərhələsində 1 qələbə qazandığına görə UEFA tərəfindən "Qarabağ" Futbol Klubuna 570,000 avro pul vəsaiti ayrılıb. Əlavə olaraq, "Qarabağ" FK-nın qələbələrinin sayına əsasən əlavə bonuslar 52,000 avro həcmində hesablanıb.

Beləliklə, UEFA-dan ayrılmış ümumilikdə 622,000 avro pul vəsaiti AFFA-nın vasitəçiliyi ilə "Qarabağ" klubunun hesabına köçürülüb.

## *UEFA maliyyə fair-play qaydalarını sərtləşdirə bilər*

Avropa Futbol Assosiasiyaları İttifaqı (UEFA) yaxın vaxtlarda maliyyə fair-play qaydalarını sərtləşdirə bilər.

Hazırda UEFA Avropa klublarının maksimum 3 il müddətində futbolçu transferi üçün lazım olan məbləği ödəməsi qaydalarını hazırlamaq istəyir.

Xatırladaq ki, Fransanın PSJ klubu 2017-ci ildə braziliyalı hücumçu Neymarın transferi üçün İspaniyanın "Barselona" klubuna ödəyəcəyi 222 milyon avronu maliyyə sənədlərində beş hissəyə bölüb. Beləliklə, UEFA hər il Kataloniya klubunun hesabına 44,4 milyon avro köçürülməsini hesaba alır.

Yeni qaydalara görə, gələcəkdə klublar transfer üzrə ödənişləri ən çox 3 ilə bölə biləcəklər.

## Dünyanın ən yaşlı futbolçusu daha bir il yaşıl meydanlarda olacaq

Dünyanın ən yaşlı futbolşusu, 51 yaşlı Kazuyoşi Miura Yaponiyanın ikinci dəstəsində çıxış edən "Yokohama" klubu ilə müqaviləsini daha bir il müddətinə uzadıb. Bu yaponiyalı idmançı karyerasına 1986-cı ildə başlayıb. Bundan sonra "Santos", "Koriçibu", "Palmeyras", "Cenoa", Zaqrebin "Dinamo" komandalarında və digər klublarda çıxış edib. K.Miura dünyanın ən yaşlı peşəkar futbolçusu hesab edilir. Fevralın 26-da onun 52 yaşı tamam olacaq.

Xatırladaq ki, 2017-ci il martın 5-də K.Miura 1965-ci ildə 50 yaşı tamam olduqdan 5 gün sonra "Stock Siti"



komandasında rəsmi oyuna çıxmış ingiltərəli Stenli Metyuzanın rekordunu təzələyərək, peşəkar futbol tarixində ən yaşlı idmançı adını qazanıb.

Bundan bir həftə sonra yaponiyalı veteran rəsmi oyunda qol vuraraq, futbol tarixində daha bir rekorda imza atıb.

Karyerası boyunca Yaponiya yığmasının tərkibində 89 oyunda 55 qol vurmasına baxmayaraq, K.Miura Dünya çempionatlarının heç birində oynamayıb.

## Millidə yeni baş məşqçi təyinatı

İyirmi bir yaşınadək futbolçulardan ibarət Azərbaycan milli komandasının baş məşqçisi müəyyənləşib.

AFFA-nın Məşqçilər Komitəsinin tövsiyəsinə uyğun olaraq, milli komandamız Milan Obradoviçə həvalə edilib.

UEFA-nın PRO lisenziyasına malik serbiyalı mütəxəssis 2017-ci ildən ölkəsinin əsas yığma komandasında köməkçi məşqçi vəzifəsində çalışır.

## Zaur Həşimov "Qəbələ"yə məşqçi təyin olunub

2018-2019-cu il mövsümünün ikinci yarısına hazırlığı Bakıda davam etdirən "Qəbələ" futbol klubunun məşqçilər korpusunda dəyişiklik olub. Zaur Həşimov "Qəbələ"yə məşqçi təyin olunub. O, Sənan Qurbanovun rəhbərlik etdiyi məşqçilər korpusunda yer alıb. Otuz səkkiz yaşlı məşqçi ilə ilyarımlıq müqavilə imzalanıb.

Z.Həşimov futbolçu karyerası ərzində "Şəfa", "İnter", "MKT-Araz", "Xəzər Lənkəran", "Qarabağ", "Sumqayıt"da, həmçinin Azərbaycanın əsas və aşağı yaş qrupları komandalarında çıxış edib. "Qəbələ"nin yeni çalışdırıcısı bunadək "Qarabağ" və "Zirə"də məşqçi, Azərbaycanın U-18 yığmasında baş məşqçi kimi fəaliyyət göstərib.

## Yeniyetmə cüdoçular ölkə birinciliyində

"Sərhədçi" Olimpiya İdman Kompleksində yeniyetmə cüdoçular arasında keçirilən Azərbaycan birinciliyinə yekun vurulub.

Yarışda 80 klubdan 612 cüdoçu medallar uğrunda mübarizə aparıb. Respublika birinciliyində fərqlənən yeniyetmələrə medallar, Gənclər və İdman Nazirliyinin, Azərbaycan Cüdo Federasiyasının fəxri fərmanları və diplomları təqdim olunub. Medalların əyarına görə komanda yarışının qalibləri də müəyyənləşib.

Ümumi hesabda daha yaxşı nəticə göstərən "Neftçi" İdman Klubu birinci yerə layiq görülüb. "Judo Club 2012" ikinci, Balaxanı İdman Mərkəzinin komandası isə üçüncü yeri tutub. Qeyd edək ki, yeniyetmə cüdoçuların ölkə birinciliyində fərqlənənlər milli komandanın heyətinə cəlb olunacaqlar.



## *Məşhur gedişin səbəbləri bilindi*

İspaniyanın "Real Madrid" klubunun sabiq prezidenti Ramon Kalderon baş məşqçi Zinəddin Zidanın komandadan gedişinin səbəbini açıqlayıb. Ramon Kalderon bu barədə deyib: "Zidan "kral" klubu ilə 2017-2018-ci il mövsümündə UEFA Çempionlar Liqasının qalibi olduqdan sonra öz şəxsi istəyi ilə komandadan ayrılıb. Buna səbəb hazırkı prezident Florentino Peresdir. Fransalı mütəxəssis Kriştianu Ronaldunun klubda qalmağını, Qaret Beylin isə satılmağın istəyib. Amma Peres bunun əksini edib. Zidan klubun transfer məsələlərinə özü qərar vermək istəyirdi, təəssüf ki, orada hər bir məsələyə prezident qərar verir. Düşünürəm ki, Zidanın komandadan gedişi düz addımdır".

## *Benzema da zədəlilərin sırasına qoşuldu*

İspaniya La Liqasının 19-cu turunda "Betis"lə oyunun ilk hissəsində zədələnərək meydanı tərk edən "Real"ın futbolçusu Kərim Benzemanın durumu məlum olub.

İlkin müayinədən sonra məlum olub ki, fransalı hücumçunun əl barmağı qırılıb. Onun hansı müddətə sağalacağı isə hələlik məlum deyil.

Qeyd edək ki, Benzema bu mövsüm Madrid klubunda zədələnən 7-ci futbolçudur. Hazırda Tibo Kurtua, Marko Asensio, Qaret Beyl, Toni Kross, Xavyer Sançes və Mariano Dias da zədədən əziyyət çəkir.

# Transfer xəbərləri

"Monako" "Çelsi"nin daha bir futbolçusunu heyətinə qatmağa yaxındır. Ötən həftə Sesk Fabreqası transfer



edən knyazlıq təmsilçisi indi də London klubundan Miçi Batşuayini icarəyə götürür. Artıq tərəflər arasında danışıqların müsbət yekunlaşdığı müəyyənləşib.

* * *

"Barselona"nın futbolçusu Munir El-Haddadi "Sevilya"ya transfer



olunub. 23 yaşlı hücumçu "Sevilya" klubu ilə 4 illik müqavilə imzalayıb. Transferin ümumi dəyəri 1 milyon avro dəyərindədir.

* * *

"Barselona" "Mançester Yunayted"in transfer etmək istədiyi futbolçusu Filipp Koutinyoya qiymət qoyub. İngiltərə klubu 140 milyon avro ödəyəcəyi təqdirdə, Kataloniya təmsilçisi braziliyalı yarımmüdafiəçini satacaq. Kataloniyalılar isə braziliyalı futbolçu ilə yollarını ayırmaq fikrində deyil.

* * *

"Tottenhem" Harri Keyni 350 milyon avroya satmağa hazırdır.

İngiltərə klubunun 25 yaşlı oyunçunu bu məbləğdən aşağı qiymətə satmağı



düşünmədiyi bildirilib. Keyn ilə "Real" və "Barselona"nın maraqlandığı iddia olunur.

* * *

"Arsenal"ın futbolçusu Aaron Remzi yayda azad agent kimi "Yuventus"a keçəcək. Uelsli yarımmüdafiəçi Turin klubu ilə razılığa gəlib. O, yayda "Yuventus"la 5 illik müqavilə



imzalayacaq. A.Remzi yeni klubunda ilinə 8 milyon avro qazanacaq.

* * *

Portuqaliyanın "Çaves" klubunun müdafiəçisi Markaonun "Qalatasaray"a keçidi rəsmiləşib. Tərəflər arasında bu transferlə bağlı razılıq əldə olunub. Braziliyalı oyunçu yaxın günlərdə rəsmi müqaviləyə imza atacaq.

* * *

"Fənərbağça"nın futbolçusu Roberto Soldado karyerasını Səudiyyə Ərəbistanında davam etdirəcək.



İstanbul klubu 33 yaşlı hücumçunu "Əl-Şabab"a tranfer edib. "Fənərbağça"nın transfer qarşılığında 5 milyon avro qazandığı bildirilir.

* * *

Türkiyənin "Akhisar" klubundan ayrılan Yevgeni Seleznyov karyerasını İspaniyada davam etdirəcək.

33 yaşlı hücumçu Sequnda təmsilçisi "Malaqa"da çıxış edəcək. Klubun rəsmi saytı futbolçu ilə mövsümün sonuna kimi müqavilə imzalandığını açıqlayıb.

* * *

Moskva "Spartak"ından ayrılan Aleksandr Səmədov "Krılya Sovetov"a keçib. Klub hələ ki, razılığın şərtlərini açıqlamayıb. 34 yaşlı futbolçu yeni komandasında 19 nömrəli formanı geyinəcək.



Dünya idmanı

# Olimpiya çempionu karyerasını başa vurdu



Yaponiyalı qadın güləşçi, üçqat Olimpiya çempionu Saori Yoşida karyerasını başa vurub. Bu barədə idmançı özü məlumat verib.

36 yaşlı Saori Yoşida "Twitter" səhifəsində bu barədə yazıb: "Mən 33 illik karyerama son qoyuram. Dəstəyə görə hamıya minnətdarlığımı bildirirəm".

O, 2004-cü, 2008-ci və 2012-ci illərdə keçirilən Olimpiya Oyunlarında 55 kq-da çempion olub. 13 dəfə dünya çempionu adını qazanan Yoşida bu göstərici üzrə həm qadınlar, həm də kişilər arasında mütləq rekord müəyyən edib.

# "Ferrari"də yeni rəhbər



Mauritsio Arrivabene avtomobil yürüşləri üzrə Formula 1 dünya çempionatının "Ferrari" komandasının rəhbəri vəzifəsini tərk edib. Onu bu postda Matti Binotto əvəz edib. Yeni rəhbər bu vaxtadək komandanın texniki direktoru vəzifəsində çalışıb.

Arrivabene 2014-cü ilin sonlarında "Ferrari"yə rəhbər təyin edilib. Onun rəhbərliyi ilə üç dəfə Mühəndislər Kubokunda ikinci yeri tutan, komandanın yürüşçüsü alman Sebastyan Fettel isə şəxsi hesabda iki dəfə ikinci olub.

2019-cu ildə dördqat dünya çempionu Fettelin "Ferrari"də ortağı monakolu Şarl Lekler olacaq.

Xatırladaq ki, Formula 1 mövsümünə martın 15-də Avstraliya mərhələsi ilə start veriləcək.

# "Qolden Steyt" qalib gəldi

Milli Basketbol Assosiasiyası (NBA) çərçivəsində keçirilən müntəzəm çempionatda "Qolden Steyt" "Nyu-York"u məğlub etməyi bacarıb. Matç 122:95 hesablı qələbə ilə başa çatıb.



Qalib komandanın forvard oyunçusu Kley Tompson bu oyunda 43 xal toplayıb. "Nyu-York"un türkiyəli basketbolçusu Enis Kanterin hesabına isə 12 xal və 16 ötürmə yazılıb.

# Ulduz tennisçi Dubay turnirində

İsveçrəli tennisçi Roje Federer Dubayda keçiriləcək və mükafat fondu 2,7 milyon dollar olan turnirdə iştirak etməyi planlaşdırır. Turnir bu ilin fevral-mart aylarında təşkil ediləcək.

Məlumat üçün bildirək ki, Roje Federer ənənəvi Dubay turnirində indiyədək 3 dəfə - 2012, 2014 və 2015-ci illərdə qalib olub. O, ötən il bu yarışda iştirak etməyib.

# *Britaniyalı tennisçi idmanla vidalaşır*

Tennis üzrə ikiqat Olimpiya çempionu, keçmiş dünya çempionu Endi Murrey karyerasını başa vurduğunu deyib.

O, Avstraliyanın Melburn şəhərində keçirilən mətbuat konfransında qərarını jurnalistlərlə bölüşüb. 31 yaşlı Murrey bildirib ki, buna səbəb ombasından aldığı zədədir.

Qeyd edək ki, E.Murrey 1977-ci ildən bəri "Böyük Dəbilqə"ni qazanan (2012-ci il) ilk britaniyalı tennisçidir.







# "Mourinyo dostumdur"

"Benfika" klubunun prezidenti Luis Felipe Vieyra, boş qalan baş məşqçi postuna Joze Mourinyonu gətirmək istədiklərini açıqlayıb.

Portuqaliya mətbuatına açıqlama verən Vieyra, Mourinyonun baş məşqçilik üçün nə qədər pul istəsə, verməyə hazır olduğunu deyib.

"Mourinyo mənim dostumdur. "Benfika"ya gəlməyə razılıq versə, nə qədər vəsat istəsə ödəməyə hazıram. Onunla hələ danışmamışam. Mən sadəcə, nəticələri sığorta edə biləcək birini axtarıram", - deyə Vieyra bildirib.

Joze Mourinyo məşqçilik karyerasına məhz "Benfika"da başlayıb. 2000-ci ilin sentyabrından dekabra qədər "Benfika"nı çalışdıran Mourinyo, daha sonra "Portu", "Çelsi", "Real", "İnter" kimi klublarla əməkdaşlıq edib. Portuqaliyalı mütəxəssisin son iş yeri isə "Mançester Yunayted" olub. 55 yaşlı məşqçi axırıncı klubun uğursuz nəticələrdən sonra, 2018-ci ilin dekabrında öz vəzifəsindən kənarlaşdırılıb.

"Benfika" bir müddət əvvəl baş məşqçisi Rui Vitoriya ilə yollarını ayırıb.

# Misirli futbolçu qitənin ən yaxşı oyunçusudur

Misir millisinin və "Liverpul"un hücumçusu Məhəmməd Salah 2018-ci ildə Afrikanın ən yaxşı futbolçusu seçilib. Mükafatlandırma mərasimi Dakar şəhərində keçirilib.




Qeyd edək ki, o, ardıcıl ikinci dəfədir, bu şərəfə layiq görülür. Salah 2017-ci ildə olduğu kimi, bu dəfə də Afrika Futbol Konfederasiyasının sorğusunda komanda yoldaşı seneqallı Sadio Mane və "Arsenal"ın qabonlu forvardı Pyerre-Emerik Aubemeyanqı qabaqlayıb.

Xatırladaq ki, 26 yaşlı Salah 2017/18 mövsümündə 32 qolla Premyer Liqanın bombardiri olub. Hazırkı mövsümdə isə o, 13 qolla ən məhsuldar futbolçuların siyahısında üçüncüdür. Məhəmməd Salah 2018-ci ildə FIFA-nın "The Best" mükafatı uğrunda mübarizədə 3-cü, "Qızıl top"un sorğusunda isə 6-cı olub. Amma ən gözəl qolun müəllifi kimi Puşkaş mükafatına layiq görülüb.

Qeyd edək ki, Mərakeş millisini çalışdıran Herve Renard karyerası ərzində 3-cü dəfə Afrikanın ən yaxşı məşqçisi, "Borussiya Dortmund"un mərakeşli müdafiəçisi Əşrəf Hakimi isə qitənin ən yaxşı gənc oyunçusu seçilib.

# *"Milli komandada iş təcrübəsi olmayıb"*

"France Football"un məlumatına görə, "Arsenal"ın sabiq baş məşqçisi Arsen Venger karyerasını Qətər millisində davam etdirə bilər.

Qətər futbolunun rəhbərliyi milli komandanı 2022-ci ildə ev sahibliyi edəcəkləri dünya çempionatına təcrübəli mütəxəssisin hazırlamasını istəyir. Baş məşqçi vəzifəsinə əsas namizəd isə 69 yaşlı Vengerdir. Hazırda Asiya kubokunda çıxış edən Qətər millisini 2017-ci ildən 43 yaşlı ispaniyalı Feliks Sançes çalışdırır. Maraqlıdır ki, 1984-cü ildən baş məşqçiliyə başlayan Arsen Vengerin milli komandada iş təcrübəsi olmayıb.

# *DÇ-nin keçirilməsi məsələsi Səudiyyə Ərəbistanı ilə müzakirə ediləcək*

Beynəlxalq Şahmat Federasiyasının (FİDE) prezidenti Arkadi Dvorkoviç rapid və blits üzrə 2019-cu il dünya çempionatının keçiriləcəyi yerlə bağlı Səudiyyə Ərəbistanı nümayəndələri ilə danışıqlar aparacaq. Rapid və blits üzrə 2018-ci il dünya çempionatı dekabrın sonlarında Sankt-Peterburqda keçirilsə də, Səudiyyə Ərəbistanı həmtəşkilatçı olduğundan, turnir Kral Salmanın adını daşıyıb.

"Növbəti dünya çempionatının keçirilməsi barədə müqavilə hələ də Səudiyyə Ərəbistanındadır. Hazırda yarışın harada keçiriləcəyi bizə məlum deyil. Mən hələ bu barədə danışıqlar aparmalıyam. Biz Səudiyyə Ərəbistanı ilə bu məsələni müzakirə edəcəyik", - deyə Dvorkoviç bildirib.

Daha əvvəl Rusiya Şahmat Federasiyasının prezidenti Andrey Filatov etiraf etmişdi ki, nəzəri cəhətdən Rusiya 2019-cu il turnirinə də ev sahibliyi edə bilər. Yəni turniri Kral Salmanın himayədarlığı ilə də keçirə bilər.

Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə və MOK-un kollektivi iş yoldaşları Vaqif Əliyevə, anası

**Rəfiqə xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər. Allah rəhmət eləsin!

Respublika Yüksək İdman Ustalığı Məktəbinin kollektivi Vaqif Əliyevə, anası

**Rəfiqə xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!

"Olimpiya dünyası" qəzetinin kollektivi Vaqif Əliyevə, anası

**Rəfiqə xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!

Olimpiya dünyası

Baş redaktor: M.Q.Fərzəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 20 qəpikdir.
Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı günü çap edilir.

*E-mail:* olimpiya_dunyasi@mail.ru
*Ünvan:* Bakı şəhəri, 2-ci süлh döngəsi, 2a.
*Tel.:* 564-90-49; 564-90-54; 564-74-19

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.